

## İran yanlış mövqedən geri çəkilir, yoxsa...

*Azərbaycan və İran arasında münasibətlər gərgin olaraq qalır. Azərbaycan tərəfindən adekvat reaksiyalar verildiyi ərəfədə İranın "Mehr" agentliyinin yaydığı məlumata görə, xarici işlər naziri Hüseyn Əmir Abdollahian yaxın günlərdə Azərbaycana gələcək. O bildirib ki, yeni İran hökumətinin xarici siyasətinin əsas prioritetlərindən biri qonşularını, o cümlədən şimal qonşularını...*

Səh.9


# UNİKAL

№38 (2076) 15 oktyabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Emin Əmirullayevin adından saxta arayış?!



Səh.9

## XİN rəhbərləri görüşdü: Sərhəd məsələsi masada

## Bakı Humanitar Kollecində ciddi qalmaqal yaşanır

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) nəzdində fəaliyyət göstərən Bakı Humanitar Kollecinin (Keçmiş Mədəni Maarif Texnikumu) 67 müəllimi işdən çıxarılıb. Çıxarılan müəllimlərdən 46-sı ali təhsilli müəllim, 21 orta ixtisas təhsilli şəxslər, 5-i isə şöbə müdirləridir. Bildirilir ki, müəllimlərin işdən çıxarılması ilə bağlı əmri Kollecin direktoru Nərmin Qaralova verib. Yerli mətbuatda kollecin tədris işləri üzrə direktor müavini Kamran Məsimovun səs yazısı yayılıb. Səs yazısında Kamran Məsimov qeyd edib ki, bu müəllimlər Ceyhun Bayramovun təhsil naziri olduğu dönəmdə qeyri-qanuni işə götürülüb və 67 müəllimin qovulmasını isə hazırkı təhsil naziri Emin Əmrullayev tapşırıb...*

Səh.7

## "Dövlət maraqları nəyi tələb edirsə, o addım da atılmalıdır"



*Ədalət Partiyasının sədr müavini, politoloq Mütəllim Rəhimli "Unikal" qəzetinə müsahibə verib. M.Rəhimli ilə söhbətin mövzusu son günlər gərginləşən Azərbaycan-İran münasibətləri, gərginliyin regiona təsiri, ölkədaxili siyasi qüvvələrin prosesdə iştirakı və digər məsələlər barədə oldu. - Son günlər İrandan Azərbaycana qarşı sərgilənən mövqe birmənalı qarşılanmır.*

Səh.4

## "Əvvəl rüşvət verib 3 günə həll edirdik, indi..." - Fazil Mustafa



*"Müəyyən korrupsioner məmurları vəzifədən uzaqlaşdırılması, yerinə isə gənc və islahatçı kadrların təyin olunması Azərbaycan cəmiyyətinə ümid yaratmışdı". Unikal.org xəbər verir ki, bunu deputat Fazil Mustafa deyib. "Bizə gəncləşmə yox, yeniləşmə lazımdır. Yüksək vəzifəyə təyin olunan bəzi gənc kadrlar öz...*

Səh.8

## Oqtay Şirəliyevin nazir olduğu dövrün daha bir böyük korrupsiyası...



*Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli agentliyin 9 ayın yekunları ilə bağlı keçirilən mətbuat konfransında maraqlı açıqlama verib. O bildirib ki, bu ilin əvvəlindən 58 tibb müəssisəsində xəstələrin qidalanma rejiminin təmin olunması, həmçinin qida normalarının normativ sənədlərin tələblərinə uyğun tətbiq edilməsi...*

Səh.8

# Alim Qasımovun qohumu Nazpərinin 30 min dollarını qaytarmır



***Xalq artisti Nazpəri Dostəliyeva Xalq artisti Alim Qasımovun qohumuna verdiyi borc pulu geri ala bilmir.***

Axşam.az-a daxil olan məlumata görə, N.Dostəliyeva pulu Alim Qasımovun əmisi oğlu Yusifə verib. Xalq artisti saytımıza açıqlamasında xəbəri təsdiqləyib.

Onun sözlərinə görə, illərdir bu məsələ öz həllini tapmır: "Belə hadisədə Alim Qasımov kimi sənətkarın adının hallanmasını istəmirəm. Vicdanıma sığışdırmıram ki, Alim bəyin adı bu işdə hallansın. 10 ildən artıqdır pulu qaytarmır. Oturub gözləyirəm, görüm nə olacaq. Məhkəmə də oldu, amma yarımçıq qaldı, davamını gətirmədim. Pulu Yusifə rəsmi formada, notariusdan çıxmış müqavilə ilə vermişdim. Müqavilə indi də əlimdədir. Haqsızlığı gördüm, məsələni bağlayıb qoydum kənara. Bu günə qədər bu barədə danışmamışam. Hələ də gözləyirəm ki, onlardan cavab çıxa".

Müğənni verdiyi borcun məbləğini də açıqlayıb: "Yusif məndən 30 min dollar alıb. Nəsə bizneslə əlaqədar iş görürdülər. Gəldi xahiş etdi, mən də verdim. İllərdir bir qəpik də qaytarmır".

# Bacıları da Elza Seyidcahanla danışmır



***"Mənə yazırlar ki, sizin cangüdəniniz olum, hətta təmənnasız bunu təklif edirlər".***

Bu sözləri Əməkdar artist Elza Seyidcahan "Xəbərətər" proqramında deyib. Müğənni izləyicilərinin ona təmənnasız cangüdənlik etmək istədiyini söyləyib: "Yeganə müğənniyəm ki, yanımda ancaq prodüser olur. Toylara gedəndə yanımda ya bacım, ya kürəkənim, ya da bir vaxtlar oğlum olurdu. Özümə cangüdən götürmürəm. Bunu təmənnasız etmək istəyənlər var, amma razılaşmıram".

Seyidcahan bacıları və oğlu ilə küsülü olması məsələsinə də aydınlıq gətirib: "Bacılarım məndən istedadlıdır. Ən azı beş dil bilirlər. Aramızda elə narazıçılıq yoxdur. El elə sığır, amma ev evə sığmır. Əvvəl mənim evimdə qalırdılar. Oğlumun evi yoxdur, amma ayrı qalır. Qızımın da evi yoxdur, mənimlə yaşayır. Evin içində illərlə bacı bacıyla, qardaş qardaşla danışmır".

Qeyd edək ki, Elza bir müddət əvvəl bütün efirlərə bacısı Rasimə ilə birlikdə qatılırdı. Son günlər isə onlar birlikdə görüntülənmirlər. İfaçının digər bacısı Lalə də açıqlamasında onunla küsdüyünü etiraf etmişdi. Müğənni oğlu Ələkbərlə də küsülüdür.



# Əlikram bu villasına 400 min xərcləyib

***Müğənni Əlikram Bayramov "Həmin Zaur" verilişində qonaq olub.***

Proqramda aparıcı Zaur Kamal Ə.Bayramovun 6 evinin olduğunu, sonuncunu isə Biləsuvarda tikdirdiyini bildirib. Sənətçi isə cavab olaraq bunları deyib: "Oğurlamamışam ki, zəhmətlə tikmişəm. Bütün el-oba da bilir ki, atamın yurdunda ev tikmişəm. Hardasa 400 min manat xərcim çıxıb".

# Naibə Allahverdiyevaya nə olub? - "Xəyanət edəni bağışlamayın"

***Xalq artisti Naibə Allahverdiyevanın son günlər sosial şəbəkədə paylaşdığı ayrılıq mesajları diqqət çəkib.***



Aktrisa "Sizə xəyanət edən, dəyər verməyən insanları bağışlamayın. Onlardan uzaqlaşın, çünki belə insanlar heç zaman dəyişməyəcək. Sizin həyatınızı zəhərə çevirəcəklər. Kim olursa olsun, fərq etməz, doğma və ya yad" deyə, paylaşımlarından birində qeyd edib.

Allahverdiyeva daha sonra "Sevgidən nifrətə bir addımdır. Onu geri qaytarmağa çalışmayın. Çünki nifrət sevgiyə çevrilə bilməz" sözlərini əlavə edib.

Onun bu paylaşımları sosial şəbəkədə müzakirə olunaraq, aktrisanın xəyanətlə üzləşməsi yazılıb. Məsələ ilə bağlı Allahverdiyeva Axşam.az-a açıqlama verib. O bildirib ki, yaşadıqları onu bu cür mesajlar paylaşmağa vadar edib: "Xəyanət tək qadınla kişi münasibətinə aid deyil. Ətrafımda gördüklərim, yaşadıqlarımdan sonra belə qənatə gəldim ki, təklik hamısından yaxşıdır. Çox çətindir yaşamaq".

Aktrisa söhbət zamanı TikTok-un aktiv istifadəçisi olmasından da bəhs edib: "Oranı çox pisləyirdilər, amma istədiyin mövzunu seçirsən. Orada pis, səviyyəsiz heç nə görmürəm. TikTok-u digər sosial şəbəkə hesablarımdan daha çox sevirəm. Mənə o qədər gözəl sözlər yazırlar ki... Heç İnstaqramda o qədər bəyənim yoxdur. Videomu 200 min insan bəyənib".

Qeyd edək ki, verilişlərin birində qonaq olan zaman N.Allahverdiyeva həyat yoldaşının qısqanc olduğunu açıqlamışdı.

# Oqtay Şirəliyevin nazir olduğu dövrün daha bir böyük korrupsiyası...

## Xəstələrin qida xərcləri üçün ayrılan vəsaitləri kimlər və necə "yeyirlərmiş"?



***Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli agentliyin 9 ayın yekunları ilə bağlı keçirilən mətbuat konfransında maraqlı açıqlama verib. O bildirib ki, bu ilin əvvəlindən 58 tibb müəssisəsində xəstələrin qidalanma rejiminin təmin olunması, həmçinin qida normalarının normativ sənədlərin tələblərinə uyğun tətbiq edilməsi ilə bağlı yoxlamalar həyata keçirilib. Agentlik sədrinin sözlərinə görə, 8 tibb müəssisəsində aşkar edilmiş pozuntularla bağlı materiallar Baş Prokurorluğa göndərilib. Həmçinin 28 tibb müəssisəsinin məsul şəxsləri yol verdikləri pozuntularla bağlı inzibati məsuliyyətə cəlb edilib.***

Əslində sözügedən problem ölkə səhiyyəsinin yaralı yerlərindən biridir və Oqtay Şirəliyevin nazir olduğu dövrdə xüsusilə geniş vüsət alıb. Məsələn, Hesablama Palatasının Kollegiyası müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq dövlət büdcəsinin yerli xərclərindən 2013-2015-ci illərdə və 2016-cı ilin 1-ci rübündə Cəlilabad Mərkəzi Rayon Xəstəxanasına ayrılmış vəsaitlərin proqnozlaşdırılması və istifadəsi vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələri üzrə hesabatına göz ataq. Həmin hesabatda bildirilirdi ki, Nazirlər Kabinetinin "Təhsil ocaqlarında, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" müvafiq qərarının tələblərinə uyğun hesablamalar aparılmayaraq bir çarpayı gününə ərzaq xərci 1 manat dəyərində proqnozlaşdırılıb, lakin faktiki icra olunmuş çarpayı günlərinə görə bir çarpayı gününə sərf olunan ərzaq xərci 2013-2015-ci illərdə 2,4 manat, 2016-cı ilin I-ci rübündə 2,7 manat olub. Nəticədə çarpayı günləri ərzaqla tam təmin edilməyib. Bundan başqa, auditlə əhatə olunan dövrdə bir çarpayı gününə sərf olunmuş dərman və ərzaq xərcləri üzrə göstəricilər illər və tibb müəssisələri üzrə fərqli olub. Bununla yanaşı xəstə sayının çox yazılması nəticəsində artıq ərzaq xərcinə yol verilib.

Və ya: yenə Hesablama Palatasının Kollegiyası müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq dövlət büdcəsinin yerli xərclərindən 2014-2015-ci illərdə və 2016-cı ilin yanvar-may aylarında Ucar Mərkəzi Rayon Xəstəxanasına ayrılmış vəsaitlərin proqnozlaşdırılması və icrası vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələri üzrə hesabatında bildirilirdi ki, həmin səhiyyə ocağı, eləcə də onun tabeliyindəki tibb müəssisələrində bir çarpayı gününə ərzaq xərci 2014-cü ildə orta hesabla 1,7 manat, 2015-ci ildə 1,9 manat, 2016-cı ilin 5 ayında 1,4 manat təşkil etmiş, həmçinin, bir çarpayı gününə sərf olunmuş dərman və ərzaq xərcləri üzrə göstəricilər strukturuna daxil olan tibb müəssisələri üzrə də fərqli olub.

Elə 2015-2016-cı illərdə Sumqayıt şəhər səhiyyə şöbəsinə ayrılmış vəsaitlərin proqnozlaşdırılması və icrası ilə bağlı həyata keçirilmiş auditin nəticələri də ciddi yeyinti hallarını ortaya çıxarmışdı. Məlum olmuşdu ki, ərzaq və dərman xərcinin icrası zamanı xəstəxanalar üzrə çarpayı günlərinin icrasının nəzərə alınmaması nəticəsində bir çarpayı gününə düşən dərman xərci 2015-ci ildə 0,5-4 manat, 2016-cı ildə 0,3-6,9 manat, ərzaq xərci isə müvafiq olaraq 5,6-6,2 manat və 4,8-6 manat fərqli olub. Həmçinin xəstəxanalarda ərzağın menyularda göstərilən miqdardan az verilməsi, menyularda xəstə sayının çox göstərilməsi səbəbindən artıq vəsait ödənişinə yol verilib, müvafiq qərarla təsdiq edilmiş normalarda nəzərdə tutulmayan ərzaq məhsullarının alınmasına pul xərclənib.

Belə nümunələrin sayını kifayət qədər artırmaq mümkündür. Heç bir şübhə yoxdur ki, Oqtay Şirəliyevin səhiyyə naziri olduğu dövrdə dövlət tibb müəssisələri tərəfindən dərman və ərzaq xərclərinin mühüm hissəsi korrupsiya predmetinə çevrilib, bu isə üst-üstə yığıldıqda milyonlarla manatın mənimsənilməsi deməkdir.

Eyni zamanda ona da şübhə yoxdur ki, bütün bu korrupsiya əməlləri Səhiyyə Nazirliyinin o vaxtkı rəhbərliyinin bilgisi daxilində baş verirdi. Görünür, mənimsənilən həmin milyonlarla manatdan nazirlik başbilənlərinə də xüsusi pay çatırdı. Əks halda Şirəliyevin 16 illik (2005 - 2021) nazirliyi dövründə medianın, ekspertlərin, deputatların davamlı şəkildə gündəmə gətirdiyi, hətta Hesablama Palatasının hesabatlarına düşən bu qanunsuzluqlara bir əncam çəkilərdi.

Nəhayət sonda: ürəkağrıdıcı məqam odur ki, eks-nazirin zamanından qalma sözügedən korrupsiya "ənənəsi" tibb müəssisələrində hələ də davam edir. Hər halda Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzlinin yazımızın əvvəlində təqdim elədiyimiz açıqlamalarından belə çıxır.

Elə isə sual olunur: sözügedən mənimsəmələrlə bağlı daha sərt cəza tədbirlərinə əl atmağın zamanı gəlməyib-mi?!

***Sənan Mirzə***

# 5 nəfərin ölümünə səbəb olan sürücüyə 10 il həbs cəzası verilə bilər



***Xəbər verdiyimiz kimi, ötən gün 19 yaşlı Bakı şəhər sakini Mahmud Əzizov idarə etdiyi "Mercedes" markalı yük avtomobili ilə paytaxt sakini Tahir Abdullayevin idarə etdiyi "Daewoo" markalı sərnişin avtobusunu vurub.***

Qəza nəticəsində 5 nəfər ölüb, 25 nəfər yaralanıb. Faktla bağlı Suraxanı Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 263.3-cü (ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanılıb. Suraxanı Rayon məhkəməsinin qərarı ilə, Mahmud Əzizov barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Onun qardaşı isə qəza zamanı M.Əzizovun dərsə tələsdiyini bildirib.

Hüquqşünas Mehman Muradlı Unikal.org-a açıqlamasında hadisəni törədən şəxsi hansı cəzanı gözlədiyi məsələsinə aydınlıq gətirib:

"Həmin şəxsə Cinayət Məcəlləsinin 263.3-cü maddəsi ilə cinayət işi açılıb. Bu da ağır cinayət hesab edilir. Həmin maddə ilə ittiham olunan şəxslər beş ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə 5 ildən - 10 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bəzi insanlar isə müdafiə hüququndan bu cür sui-istifadə edirlər. Ağır yük maşını ilə dərsə gecikirlər? Həmin şəxsin yuxulu olması isə məhkəmə prosesində yüngülləşdirici səbəb kimi nəzərə alına bilməz. Ümumiyyətlə, burada yüngülləşdirici hal yoxdur".

***Murad İbrahimli***



# "Əvvəl rüşvət verib 3 günə həll edirdik, indi..." - Fazil Mustafa

***"Müəyyən korrupsioner məmurları vəzifədən uzaqlaşdırılması, yerinə isə gənc və islahatçı kadrların təyin olunması Azərbaycan cəmiyyətinə ümid yaratmışdı".***

Unikal.org xəbər verir ki, bunu deputat Fazil Mustafa deyib. "Bizə gəncləşmə yox, yeniləşmə lazımdır. Yüksək vəzifəyə təyin olunan bəzi gənc kadrlar öz sahələrində özlərini doğrultmadılar. Sanki, öz sahələrində olan problemləri həll etmək yerinə, daha böyük problemlər yaratdılar. Əvvəl dövlət qurumlarında hər hansı formada rüşvət verərək bir sənədi 3 günə həll edirdin, indi isə o puldan da artıq tələb olunur, amma 3 aya həll olunur. Çünki mexanizm artıq daha çox ətalətə yönəlib".

"Dərman məsələsi parlamentdə də qaldırıldı. Niyə də Türkiyədən Azərbaycana dərman preparatları gətirilməsin?!" - deyən deputat Fazil Mustafa bildirib ki, Azərbaycanda dərman sektoru inkişaf etdirilmirsə, Türkiyənin dərman sektorundan istifadə edilməlidir: "Bu məsələlər adi, sadə həll yolu olan məsələlərdir. Sadəcə, imtiyazlı təbəqəni yuxarıdan götürməsən, bu mümkün olmayacaq. Çünki bu sahədə qandan üstün adamlar var".

***Murad İbrahimli***

# Qarabağ razılaşmaları tam yerinə yetirilməlidir - Rusiya XİN

***"Moskva Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr (10 noyabr-red.) 2020-ci il, habelə 11 yanvar 2021-ci il üçtərəfli razılaşmalarının bütün müddəalarının sözsüz yerinə yetirilməsinin tərəfdarıdır".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə deyib.

"Hesab edirik ki, bununla Bakı və İrəvan arasında qarşılıqlı münasibətlərin, o cümlədən ikitərəfli mürəkkəb məsələlərin normallaşması üçün lazımi şərait yaranacaq", - Zaxarova əlavə edib.

# Sülhməramlılar Qarabağda genişmiqyaslı hərbi təlim keçirdi

***Rusiya Müdafiə Nazirliyindən verilən məlumata görə, Qarabağda fəaliyyət göstərən Rusiya sülhməramlı kontingentinin hərbçiləri 27 müşahidə məntəqəsinin hamısında genişmiqyaslı təlim keçiriblər.***

Unikal.org xəbər verir ki, təlim zamanı mümkün qanun pozuntularının və təxribatçı hərəkətlərin qarşısını almaq, eləcə də müşahidə məntəqələrinə edilə biləcək hücumu dəf etmək üçün məşqlər edilib.

Rusiya sülhməramlı kontingentinin nümayəndəsi Aleksandr Draqun bildirib ki, yaxınlıqdakı yaşayış məntəqələrinin sakinləri döyüş hazırlığı təlimləri keçirərkən onlara inam və anlayışla yanaşırlar: "Təlimlərin təşkili zamanı heç bir problem və problem yaranmır".

***Ağarza Elçinoğlu***

# İran yanlış mövqedən geri çəkilir, yoxsa...

## Müxtəlif dezinformasiyalar, hava məkanının Naxçıvana daşınan bütün yüklər üçün açıq olması kimi digər yalanlar nə üçündür?



***Azərbaycan və İran arasında münasibətlər gərgin olaraq qalır. Azərbaycan tərəfindən adekvat reaksiyalar verildiyi ərəfədə İranın "Mehr" agentliyinin yaydığı məlumata görə, xarici işlər naziri Hüseyn Əmir Abdollahian yaxın günlərdə Azərbaycana gələcək.***

O bildirib ki, yeni İran hökumətinin xarici siyasətinin əsas prioritetlərindən biri qonşularını, o cümlədən şimal qonşularını diqqət mərkəzində saxlamaqdır. Nazir açıqlayıb ki, Azərbaycanla Ermənistan bizim yaxşı qonşularımızdır və onlardan birinə qarşı çalışa bilmərik, yəni, İranın xarici siyasəti balanslaşdırılıb.

Millət vəkili, siyasi şərhçi Sahib Alıyev fikirlərini "Unikal" qəzeti ilə bölüşərkən deyib ki, İranın yeni xarici işlər naziri Moskvaya səfəri zamanı Azərbaycanla bağlı səsləndirdiyi fikirlər, orada sərgilədiyi davranışla təmsil etdiyi dövlətin oturuşmuşluğuna və qədimliyinə heç cür uyuşmayan biri olduğunu ortaya qoyub: "Amma Əmir Abdullahianın Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng etməmişdən qabaq və sonra özünün, eyni zamanda da başında durduğu qurumun yaydığı dezinformasiyalar belə bir təəssürat yaradır ki, deyəsən İran qardaşlaşdığı Ermənistandan elə də çox fərqlənmir və onun kimi "failed state"cəsinə davranır. Baxın, deməli, İranın xarici işlər naziri oktyabrın 11-də Livanın Əl Manar kanalına verdiyi intervüdə onların tələbi qarşılığında Azərbaycan rəhbərliyinin bizim ölkədəki "terorçuların və sionistlərin" buradan çıxarılacağı öhdəliyi götürdüyünü deməşdi. Demişdi və cavabını da almışdı. Azərbaycanın Xarici İşlər Nazirliyi onun bu və bir çox başqa yalanlarını "qətiyyətlə rədd" etmişdi.

Təkzibdən bir gün keçməmiş həmən cənab xarici işlər nazirimizə zəng edib dostluq və qonşuluqdan, eyni zamanda da qonşuluqda qarşılıqlı səfərlərdən dəm vurmaqla görüntü yaratmağa çalışdı ki, guya artıq tələbləri yerinə yetiriləndən sonra belə bir addım atıb. Yoxsa o boyda İran geriyə çəkilmək təsiri bağışlayan hərəkət etməzdi.

İki xarici işlər nazirinin telefon danışığı başa çatar-çatmaz isə İran tərəfi daha bir dezinformasiya buraxdı ki, Azərbaycan onların iki sürücüsünü həbsdən açıb buraxıb. Xatırladaq ki, burada söhbət Qarabağa qanunsuz yük daşıyan sürücülərdən gedir.

Niyə məhz o iki nəfərin tutulub saxlanması açığı mənim özüm üçün də xeyli düşündürücüdür. Belə fikirləşirəm ki, o sürücülər digər iranlılar kimi Azərbaycandan izinsiz Xankəndinə sadəcə qanunsuz yanacaq, yaxud da oradakıların ehtiyaclarının ödənməsinə yönəlmiş ərzaq və sair daşımayıblar. Başqa qaranlıq işlərdə də yer alıblar. Ola bilsin, bununla bağlı dəqiq bilgilər veriləcək".

İndi maraqlı orasıdır ki, İran bu dezinformasiyanı kimin üçün buraxır? Sahib Alıyevin fikrincə, bütün dünya bilir ki, Azərbaycan təkcə Xarici İşlər Nazirliyi deyil, ən yüksək səviyyədə burada terrorçuların olması və sionistlərin at oynatması haqda İranın iddialarının tam əsassız olduğunu bildirib: "Cəbrayılla səfəri zamanı bunun uydurma olduğunu deyən Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə verdiyi intervüsündə də bir daha oxşar fikirlər səsləndirdi.

Elə isə sözü gedən dezinformasiyalar, İranın hava məkanının Naxçıvana daşınan bütün yüklər üçün açıq olması, Azərbaycanın özünün bunu istəməməsi kimi digər yalanlar nə üçündür? Bununla Yaxın Şərqdəki proksi və tərəfdarlarına, eyni zamanda da bizim İrandakı soydaşlarımıza özlərinin olmayan böyüklüyünümü göstərirlər?

Bilirsiniz, 19, hətta 20-ci əsr olsaydı, bəlkə də, bu cür dezinformasiyalar arzulanan effekti yaradardı. Amma indi istənilən bir informasiyanı dəqiqləşdirmək elə də çox vaxt tələb etmir və bu, demək olar ki, oxuyub-yazmağı bacaran hamı üçün əlçatandır. Oxuyub-yazmağı bilməyənlərlə işləməklə isə elə də uzağa getmək olmur. Gedib Ermənistanda dirənib qalırsan".

Siyasi şərhçi Məhəmməd Əsədullazadə isə açıqlamasında deyib ki, İranın regionda qeyri-konstruktiv siyasəti və terrorizmi dəstəkləməsi uzun illərdi davam edir: "Suriyada, İraqda, Yəməndə terrorizmə verdiyi dəstəyi Cənubi Qafqazda həyata keçirməyə çalışır. Xüsusilə, Azərbaycana qarşı terroru dəstəkləməsi açıq müstəviyə keçib. Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, sərhədlərində möhkəmlənməsi İranın "qırmızı xətti" sayılırmış. Bir ölkənin öz ərazi bütövlüyünü bərpa etməsi qonşu ölkənin maraqlarına uyğun deyilsə, bu ölkə ilə diplomatik əlaqələri kəsmək və iqtisadi sanksiyalar tətbiq etmək lazımdır. Ölkəmizdə İran səfirliyi tərəfindən maliyyələşən bir neçə siyasi ekspertin Tehranı müdafiə etməsi və bizim susmağımızı, qonşuluq əlaqələrini qoruyub saxlamağı tələb edirlər. Amma, bəzi siyasi ekspertlər İran rəhbərliyinin ölkəmizi necə təhdid etdiklərini dillərinə gətirmir.

Bəzi siyasi ekspertin mətbuatda və sosial şəbəkələrdə Azərbaycanı qınaması İran haqqında dostluqdan danışması açıq şəkildə davam edir. Həmin şəxslər terroru dəstəkləyən İran rejiminin maliyyəsi vasitəsilə danışırlar. Bunlar da ölkəmizə qarşı terrora dəstək verənlərdir. Terrorun bir neçə növü var. Onlardan biri də informasiya terroru, xalqın fikirlərini manipulyasiya etməkdir. İran uzun illər ölkəmizdə ideoloji iş aparıb və indiki məqamda onları qabağa verib. İran Azərbaycan əlaqələri artıq müsbət dəyərlərə malik olmayacaq".

Müsahibimiz onu da qeyd edib ki, İranın Xarici İşlər Nazirinin Moskvaya səfəri çərçivəsində məlum oldu ki, Tehran rəsmisi Azərbaycana gəlmək istəyir. "Ümumiyyətlə, İran XİN rəhbərinin Azərbaycana səfəri ciddi nəticənin əldə olunmasına gətirib çıxarmayacaq. Fikrimcə, bunun ikitərəfli münasibətlərin normallaşmasına hər hansı ciddi bir müsbət təsiri olmayacaq. Ancaq məlum səfər tərəflər arasında gərginliyi müəyyən qədər azalda bilər. Lakin bu, ciddi nəticələrə gətirib çıxarmayacaq. Çünki İran öz siyasətində korrektələr etməkdə maraqlı görünmür. O baxımdan belə bir mühafizəkarların timsalında biz ölkəmizə qarşı dönüşün şahidi olmayacağıq. Ona görə də bu kimi səfər sadəcə görüntü xatirinədir. Təbii ki, iranlı nazirin istəkləri olacaq, amma Azərbaycan öz maraqlarından çıxış edib mövqe sərgiləyəcək", - deyə politoloq fikrini tamamlayıb.

***Z.Məmmədli***

# Ramil Usubov türkiyəli həmkarı ilə görüşdü

***Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov oktyabrın 13-14-də Türkiyə Respublikası Milli Təhlükəsizlik Şurasının Baş katibi Seyfullah Hacımüftüoğlunun dəvəti ilə Ankara şəhərində rəsmi səfərdə olub.***

Unikal.org xəbər verir ki, səfər Şuşa Bəyannaməsinin müddəalarına uyğun olaraq hər iki ölkənin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi, həmçinin qarşılıqlı maraq doğuran aktual məsələlərin müzakirəsi məqsədilə həyata keçirilib.

Seyfullah Hacımüftüoğlu ilə keçirilən ikitərəfli görüşdə Ramil Usubov dost və qardaş ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, hüquqi və təhlükəsizlik sahələrində əlaqələrin ən yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edərək, bu münasibətlərin regionda sülhün, əmin-amanlığın möhkəmlənməsinə xidmət etdiyini bildirib.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlıq və dostluq münasibətlərinin hər iki dövlət arasında əməkdaşlığa böyük töhfə verdiyi xüsusi vurğulanıb.

General-polkovnik Ramil Usubov ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərin bu gün qardaş ölkələrin prezidentlərinin rəhbərliyi ilə müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə qalxdığını, Vətən müharibəsinin ilk anlarından qardaş Türkiyənin qətiyyətli siyasi və mənəvi dəstəyinin, münaqişənin ədalətli həlli ilə bağlı ortaya qoyduğu qəti və birmənalı mövqeyinin xalqımızın haqq işinin Zəfərlə başa çatmasında çox mühüm rol oynadığını qeyd edib.

Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının peşəkarlığının artırılmasında, birgə təlimlərin keçirilməsində, digər nailiyyətlərdə Türkiyə Silahlı Qüvvələrinin xidmətləri xüsusi qeyd olunub.

2021-ci iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması ilə ölkələrimiz arasındakı əməkdaşlıq münasibətlərində yeni səhifənin açıldığı, sənədin müddəalarından irəli gələn öhdəliklərin həyata keçirilməsi sahəsində vəziyyət və perspektivlər barədə geniş müzakirələr aparılıb.

Səmimi və xoş sözlərə görə təşəkkürünü ifadə edən Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi Seyfullah Hacımüftüoğlu qardaş ölkələrimiz arasında əlaqələrin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini bildirib, bu səfərin də təhlükəsizlik sahəsində birgə fəaliyyətin təkmilləşməsinə öz töhfəsini verəcəyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Tədbirdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov da iştirak edib.

Səfər zamanı Ramil Usubov Türkiyənin Müdafiə Sənayesi İdarəsinin rəhbəri İsmayıl Dəmir, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülər, daxili işlər naziri Süleyman Soylu ilə görüşlər keçirib.

Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti səfər çərçivəsində Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət edib. Abidənin önünə əklil qoyulub.

Azərbaycan nümayəndə heyəti, həmçinin Ankaradakı Heydər Əliyev Parkında olub, Ümummilli Liderin burada ucaldılan abidəsi önünə əklil qoyub.

# Prezident bu yolun təmirinə pul ayırdı



***Prezident İlham Əliyev "Abşeron rayonunun Bakı-Şamaxı-Yevlax (33 km)-Pirəkəşkül avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamla Bakı-Şamaxı-Yevlax (33 km)-Pirəkəşkül avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 3,3 milyon (üç milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# Azərbaycanda koronavirusa yoluxanların sayı artdı



***Son sutkada Azərbaycanda koronavirusa 1448 yeni yoluxma faktı qeydə alınıb, 847 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 496 780 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 476 229 nəfər müalicə olunaraq sağalıb, 6 720 nəfər vəfat edib, aktiv xəstə sayı 13 831 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10092, ötən müddət ərzində isə ümumilikdə 4 989 627 test aparılıb.

# Şəhid hərbçimiz dəfn olundu

***Goranboylular Vətən müharibəsi Şəhidi İxtiyar İlqaroğlu ilə vidalaşıb.***

"Unikal" xəbər verir ki, Goranboy rayonunun Goranlı kəndindən, Qarabağın azadlığı uğrunda aparılan 44 günlük Şanlı Vətən müharibəsinin iştirakçısı, 2020-ci il oktyabrın 6-da Suqovuşan-Ağdərə-Murovdağ istiqamətində gedən döyüşlərdə itkin düşmüş, Ordumuzda müddətdən artıq hərbi xidmət edən, gizir, 06 iyul 1994-cü il təvəllüdlü Şəhid İxtiyar İlqaroğlu bu gün doğulduğu kənddə dəfn edilib.

Dəfn mərasimində Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Milli Məclisin deputatı Anar Məmmədov, rayonun digər rəhbər şəxsləri, Şəhidimizin döyüş yoldaşları və xidmət etdiyi hərbi hissənin hərbiçiləri, rayon ictimaiyyətinin nümayəndələri, din xadimləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500



# Ordumuz ermənilərin PUA-sını ələ keçirdi

Oktyabrın 14-də Füzuli rayonu istiqamətində kəşfiyyat məqsədilə Azərbaycan Ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələrinə məxsus kvadrokopter bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar edilərək ələ keçirilib.

# Əli Əsədovdan qaçqınlarla bağlı YENİ QAYDA

***İcbari tibbi sığorta üzrə məlumat bazasından məlumat mübadiləsinin təşkili qaydası müəyyənləşib.***

"Unikal" xəbər verir ki, bu, Baş nazir Əli Əsədovun bu gün təsdiqlədiyi "İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi"ndə əksini tapıb.



Qərara əsasən, aşağıda qeyd olunan məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə Məlumat bazasına, habelə Məlumat bazasından digər dövlət informasiya sistemlərinə və resurslarına ötürülür:

- tibbi xidmətlərin təşkili və hesabatların təqdim edilməsi ilə bağlı statistik məlumatlar;

- vətəndaşların şəxsiyyət vəsiqəsi, habelə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün verilən icazə vəsiqəsi üzrə məlumatlar;

- Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qaçqın vəsiqəsi və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali komissarının Azərbaycan Respublikasındakı Nümayəndəliyi tərəfindən himayəyə götürülmüş şəxslər üzrə məlumatlar;

- sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin fərdi identifikasiya nömrəsi və qeydiyyat ünvanı, hüquqi şəxslərin tam adı və hüquqi ünvanı, fiziki və hüquqi şəxslərin VÖEN-i;

- hüquqi və ya fiziki şəxslərin işçilərinin sayı, işçilər üçün hesablanmış əməyin ödənişi fondu, işçilər üzrə hesablanmış əməkhaqqı, hüquqi və fiziki şəxslər üçün hesablanmış icbari tibbi sığorta haqqı üzrə məlumatlar;

- hüquqi şəxslərin və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin fəaliyyət növünün kodu;

- Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin, dizel yanacağının və maye qazın, arağın (vodkanın), tündləşdirilmiş içkilərin və tündləşdirilmiş içki materiallarının, likyor və likyor məmulatlarının, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə, siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlərin və onun əvəzedicilərinin 1000 ədədinə görə, habelə energetik içkilərin hər litrinə görə hesablanmış və ödənilmiş icbari tibbi sığorta haqları üzrə məlumatlar.

# XİN rəhbərləri görüşdü: Sərhəd məsələsi masada

***Dünən Minsk şəhərində keçirilən MDB Xarici İşlər nazirləri Şurasının iclasında iştirakı çərçivəsində Rusiyanın təşəbbüsü ilə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Ermənistan xarici işlər nazirləri Ararat Mirzoyan ilə görüşü baş tutub.***

XİN-dən "Unikal"a verilən məlumata görə, görüşdə nazir Ceyhun Bayramov Azərbaycanın bölgədə mövcud olan münaqişə sonrası vəziyyət və iki ölkə arasında münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyini səsləndirib.

Nazir 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixlərində imzalanmış üçtərəfli bəyanatların tam icra edilməsinin vacibliyini vurğulayıb.

Beynəlxalq hüququn prinsiplərinə, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət əsasında Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına hazır olduğumuz ifadə edilib.

Bu xüsusda, Azərbaycanın Ermənistan ilə sərhədlərinin delimitasiyası prosesi üzrə danışıqlara başlanılmasının əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Həmçinin regionda bütün nəqliyyat kommunikasiyaların açılması üzrə razılaşmaların yerinə yetirilməsinin vacibliyi qeyd edilib.

Nazir Ceyhun Bayramov azad edilmiş ərazilərdə insan həyatına birbaşa təhdid olan



mina təhlükəsi mövzusunu qeyd edərək, bu xüsusda, Ermənistan tərəfindən dəqiq mina xəritələrinin təqdim edilməsinin zəruriliyini bildirib.

Nazir, həmçinin azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri barədə danışıb.

# "Dərslik ciddi ekspertizadan keçirilir" - Firudin Qurbanov

***"Mən deməzdim ki, məktəblərdə dərsliklər çatışmır. Təhsil Nazirliyinin dərsliklərlə bağlı hər zaman xüsusi planları var. Hansı dərsliklər ki, yenidən çap olunmalıdır, onlar çap olunur".***

Unikal.org xəbər verir ki, bu fikirləri təhsil nazirinin müavini Firudin Qurbanov jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, yararsız vəziyyətə düşən dərsliklər qanunvericiliyə əsasən dörd ildən bir yenilənir: "Bu istiqamətdə işlər daim davam edir. Çap olunan dərsliklər şagird sayı nəzərə alınaraq tirajlanır".

"Dərsliklərin hazırlanması ciddi prosesdir. Çünki vəsaitlərin hazırlanması üçün mütəxəssislərin rəyi nəzərə alınmalıdır. Prosesdə həm müvafiq ali təhsil müəssisələri, həm Dövlət İmtahan Mərkəzi, həm də Azərbaycan Milli Elmlər Akademiyası iştirak edir. Hər bir fənnə aid dərsliklərin hazırlanmasında həmin sahənin mütəxəssisləri mütləq iştirak edir və nəticədə dərslik ciddi ekspertizadan keçirilir", - nazir müavini qeyd edib.

# Ceyhun Bayramov Lavrovla Zəngəzur dəhlizini müzakirə etdi

***Minsk şəhərində keçirilən MDB Xarici İşlər nazirləri Şurasının iclasında iştirakı çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrov ilə görüşüb.***

Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.



Nazirlər Azərbaycan-Rusiya ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra məsələlərini, o cümlədən gələn il iki ölkə arasında diplomatik əlaqələrin təsis olunmasının 30-cu ildönümü çərçivəsində keçiriləcək tədbirləri geniş müzakirələr ediblər.

Tərəflər, həmçinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın tam icrası və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# "Yanvardan yoluxma azalacaq" - Komitə sədrindən əhaliyə çağırış

***Sentyabrın 22-dən 1-4-cü, sentyabrın 29-dan isə 5-11-ci siniflər üzrə əyani tədrisə başlanılıb. Ölkə üzrə bu günədək 241 sinif distant təhsilə keçirilib, onlardan 35-i artıq əyani təhsilə qayıdıb, 206 sinifdə isə distant təhsil davam etdirilir.***

Bakı şəhəri üzrə distant təhsilə keçirilmiş 140 sinfin 26-da əyani tədris forması bərpa olunub. 114 sinifdə tədris distant şəkildə təhsil davam etdirilir.

Məlumat üçün bildirək ki, Təhsil Nazirliyinin tabeliyindəki S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının bir neçə şagird və müəlliminin COVID-19 testi pozitiv çıxıb. Bu hal əsas götürülərək, gimnaziyada tədrisin bu gündən etibarən 14 gün müddətinə distant təşkil edilməsinə qərar verilib.

Əgər məktəblərdə yoluxma davamlı olsa, bütün təhsil ocaqları yenidən distant tədris sisteminə qaytarıla bilər?

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Modern.az-a bildirib ki, mövsümi qrip fonunda koronavirusa yoluxmada artım müşahidə olunur və bu proses çox qısa bir müddət çəkəcək: "Məktəblərin bağlanmasını öncədən demək olmaz. Amma mən düşünürəm ki, epidemioloji vəziyyət belə getməyəcək. Çünki peyvənd olunanların sayı gündən-günə artır. Payız mövsümünün gəlməsi, havanın soyuması ilə əlaqədar olaraq qrip və digər virus infeksiyaları çoxalır. Bunun da fonunda koronavirusa yoluxmada artım müşahidə olunur. Eyni zamanda, demək olar ki, bütün sahələrdə ənənəvi iş rejiminə keçməsi yoluxmanın artımına təkan verdi. Bu keçici bir dövrdür. Bununla yanaşı, məktəblərdə nəzarət gücləndirilməlidir. Təkcə məktəbin kollektivi tərəfindən yox, digər nəzarətedici orqanlar da bu işə qoşulmalıdır. Polis, səhiyyə əməkdaşları bu məsələni nəzarətdə saxlamalıdır".



Komitə sədri dekabr ayınadək əhalinin peyvəndlənməsinin 80%-ə çatacağını, yoluxmanın yanvar ayından sonra aşağı enəcəyini təxmin edir: "Temperaturun ölçülməsi, maska rejiminin gözlənilməsinə həm təhsil işçiləri, həm də şagirdlər əməl etməlidir. Çox təəssüf ki, əksər məktəblər buna əməl etmir, uşaqlar xüsusi ilə tənəffüslərdə maskasız gəzirlər. Ən əsas məsələ odur ki, uşaqların böyük bir qismi xəstəliyin ya daşıyıcısı olur, ya da çox yüngül keçirir. Amma evdəki insanlara yoluxdurduqları zaman nəticəsi ağır olur.Mən düşünürəm ki, bu problem yanvar ayına qədər davam edəcək. Ondan sonra artıq yoluxma dinamikası azalacaq. Çünki ilin sonuna qədər əhalimizin 80%-dən çoxunu vaksinləşdirəcəyik. Bir sözlə, insanlara səslənirəm ki, indiki hal mövsümi xarakter daşıyır. Təşvişə düşməyə ehtiyac yoxdur. Sadəcə, ciddi karantin qaydalarına əməl etsinlər".

# Dövlət Xidmətinin sabiq rəisi ittihamları qəbul etdi

***Bakı Ağır Cinayətlər Məhkəməsində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sabiq rəisi Zakir Sultanovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.***

"Unaikal"ın məlumatına görə, hakim Zeynal Ağayevin sərdrliyi ilə keçirilən prosesdə bildirilib ki, iş üzrə dindirilməli olan şahidlər məhkəmə iclasına gəlməyiblər.

Şahidlər məhkəməyə müraciət edərək xəstə olduqlarını bildiriblər.

Hakim təqsirləndirilən şəxsə müraciət edərək bildirib ki, növbəti prosesdə şahidlər çağırılsın, yoxsa onların ibtidai istintaqa verdikləri ifadələr səsləndirilsin.

Təqsirləndirilən Z.Sultanov bildirib ki, o ittihamlarda özünü təqsirli bilir və şahidlərin prosesə çağırılmasını məhkəmə mülahizəsinə buraxır.

Məhkəmə prosesi oktyabrın 20-də davam edəcək.

Qeyd edək ki, rəsmi məlumata görə, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Sultanov Zakir İmran oğlunun vəzifə səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə, vətəndaşların hüquqlarına mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol verməl변ərinə dair məlumatlar əldə edilib.



Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il mayın 8-də məhkəmənin qərarı əsasında Zakir Sultanovun xidməti və yaşadıqları ünvanlara keçirilmiş baxış zamanı Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin qəbul etdikləri pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, ayrı-ayrı valyutalarda saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilərək götürülüb.

İstintaq araşdırmaları zamanı Azərbaycan xalqının çoxəsrlik mədəni irsi və sərvəti olan tarixi abidələrin və mədəniyyət nümunələrinin qorunması, bərpası, rekonstruksiyası və mühafizəsi üçün zəruri işlərin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin bir hissəsinin Zakir Sultanov tərəfindən müntəzəm olaraq mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

Cinayət işi üzrə, mədəni irs hesab edilən xüsusi arxitektura-memarlıq üslubuna malik binalarda rekonstruksiya işlərinin aparılmasına maddi maraq müqabilində vəzifə səlahiyyətlərindən istifadə edərək razılıq verilməsi ilə bağlı əldə olunmuş məlumatlar araşdırılıb.

Respublika ərazisindəki musiqi məktəblərinin, mədəniyyət evlərinin, kitabxanaların, rəsm məktəblərinin, qalereyaların, klubların, muzeylərin və sair mədəniyyət müəssisələrinin tikintisi, cari və əsaslı təmiri işlərinə görə ayrılan dövlət vəsaitlərinin bir hissəsinin Rafiq Bayramov tərəfindən şəxsən və Mədəniyyət Nazirliyinin regional idarələrinin rəhbərləri vasitəsi ilə müntəzəm olaraq nağdlaşdırılıb mənimsənildiyinə dair məlumatlar əldə edilib.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Zakir Sultanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib.

## Qəzalı vəziyyətdə olan məktəb təmir olunacaq - RƏSMİ



***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 57 nömrəli tam orta məktəbin binasına müvafiq ixtisaslaşdırılmış dövlət qurumu tərəfindən texniki baxış keçirilib və əsaslı araşdırma aparılıb.***

BŞTİ-dən "Unikal"a verilən məlumata görə, qəzara əsasən, məktəbin qəzalı vəziyyətdə olan bir tədris korpusunda bərpa-gücləndirmə və əsaslı təmir işlərinin aparılması nəzərdə tutulur.

Oktyabrın 14-dən məktəbin bir korpusunda bərpa-gücləndirmə və əsaslı təmir işlərinin aparılması ilə əlaqədar təhsil müəssisəsinin digər korpusunda dərslər ikinövbəli şəkildə davam edir.

Məlumat verildiyi kimi, əlverişsiz hava şəraiti nəticəsində yağış və qrunt sularının 57 nömrəli tam orta məktəbin bir tədris korpusunu qəzalı vəziyyətə salması səbəbindən müəllim və şagirdlərin təhlükəsizliyi nəzərə alınaraq, rəsmi rəy verilənədək (11-13 oktyabr tarixlərində) məktəbin I-IV sinif şagirdləri 291 nömrəli Ekologiya liseyində, V-XI sinif şagirdləri isə 82 nömrəli tam orta məktəbdə dərs keçib.

Qeyd edək ki, normal tədris mühitinin, təhsilalanların və təhsilverənlərin təhlükəsizliyinin, təhsildə fasiləsizliyin təmin olunması diqqət mərkəzində saxlanılan əsas amillərdəndir.

## Direktor müavini olmaq istəyənlərin nəzərinə

***Ümumi təhsil müəssisələrində təlim-tərbiyə işləri üzrə direktor müavini, uşaqlarla məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçı vəzifələrinə işə qəbul üzrə müsabiqə nəticəsində tutulmayan və sonradan yaranan vakant yerlər üzrə əlavə müsahibə mərhələsinin keçirilməsi nəzərdə tutulub.***

Bu barədə Bakı şəhəri üzrə Təhsil İdarəsi məlumat yayıb.

Mövcud vakant yerlər əsasən Bakı şəhərinin Xəzər, Qaradağ, Sabunçu və Suraxanı rayonlarında yerləşən ümumi təhsil müəssisələrini əhatə edir.

Müsabiqənin test mərhələsində 25 baldan yuxarı nəticə göstərən və birinci müsahibə mərhələsində iştirak etməyən namizədlərlə əlaqə saxlanaraq müsahibə mərhələsinə dəvət olunacaqlar.

Müvafiq kriteriyalara cavab verən namizədlərlə hər hansı səbəbdən əlaqə saxlanılması mümkün olmasa, həmin namizədlər musabiqe@baku.edu.gov.az email ünvanına müraciət edə bilərlər.

## Bakı Zooloji Parkında qiymətlər endiriləcək? - Açıqlama

***Bakı Zooloji parkının xərcləri yeddi-səkkiz dəfə artıb. Bu sözləri Unikal.org-a açıqlamasında Bakı Zooloji Parkının direktoru Azər Hüseynov deyib.***

O bildirib ki, biletlərin qiymətinin qalxmasının səbəbi xərclərin çox olması ilə bağlıdır: "Hazırda zooparkda akvaterrariumda havalandırma, çoxlu filtrlər, su nasosları, işıqla əlaqədar qurğular istifadə olunur. Buna görə, kommunal xərclərimiz çoxdur. Büdcədən də o qədər çox pul almadığımız üçün qiymətləri belə etməli olduq. Hələ ki, qiymətlərdə dəyişiklik gözlənilmir".

***Könül Oruc***

# Paşinyan daha bir səfirini geri çağırır



***Ermənistan hökuməti daha bir ölkədəki diplomatını geri çağıracaq. Bu barədə "Hraparak" nəşri məlumat yayıb. Bildirilir ki, İspaniyadakı səfir Vladimir Karmirşalyan tezliklə vəzifəsindən azad ediləcək.***

- Karmirşalyan bacarıqsız diplomatlar sırasındadır. Ona görə yox ki, o İspaniyada xüsusi olaraq yaddaqalan bir işi görmür, sadəcə xarakterinə görə seçilmir. Ermənistan İrana yeni səfir təyin edibQəzet iddia edir ki, Karmirşalyanı "Mənim addımım" fraksiyasından olan keçmiş deputat Sos Avetisyan əvəz edəcək.

Xatırladaq dünən Ermənistanın İrandakı səfiri Artaşes Tumanyan da geri çağırılmışdı. 1999-cu ildən bu yana mühüm vəzifələrdə çalışmış Tumanyan Robert Köçəryanın kadrı sayılırdı. Tumanyanın yerinə isə Arsen Avakyan təyin edilib.

# Peru Konqresi Anım Günü ilə əlaqədar bəyanat qəbul edib

***Peru Konqresinin üzvü Xose Enrike Orenin təşəbbüsü ilə Konqres tərəfindən 27 sentyabr - Anım Günü ilə bağlı bəyanat qəbul edilib.***

Azərbaycanın Meksikadakı Səfirliyindən "Unikal"a verilən məlumata görə, sənəddə 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın yeni hərbi təcavüzünün qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün Ermənistan tərəfinin təxribatçı addımlarına qarşı cavab tədbirləri gördüyü və beləcə həmin ölkənin təcavüzkar siyasətinə son qoyan 44 günlük Vətən müharibəsinin başlandığı bildirilir.

Bəyanatda Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən təxminən 30 illik işğalından sonra Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyi və bir milyona yaxın azərbaycanlı məcburi köçkünün fundamental hüquqlarını təmin edərək öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasına şərait yaratdığı qeyd olunur.

Ardınca 27 sentyabrda "qardaş ölkə Azərbaycanın Vətən müharibəsində qəhrəmancasına həlak olmuş əsgər və zabitlərinin xatirəsini yad etmək üçün Prezident İlham Əliyevin Sərəncamı əsasında elan edilmiş Anım Gününü" qeyd etdiyi söylənilir və ölkə tarixində yeni bir dövrün başlanğıcını qoyduğu, bölgədəki reallıqları dəyişdiyi və beynəlxalq ədaləti bərpa etdiyi üçün "Anım Günü"nün Azərbaycanda olduqca əlamətdar tarix hesab olunduğu deyilir.

Sonda Azərbaycan xalqına Vətəninin azadlığı uğrunda mübarizə aparmış bütün şəhidlərin xatirəsinə dərin ehtiram olaraq başsağlığı ifadə edilir.

# Əfqanıstanın xarici işlər naziri Türkiyəyə gedib

***"Taliban"ın Əfqanıstanda qurduğu müvəqqəti hökumətin xarici işlər naziri Əmir Xan Mottakinin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə rəsmi səfərə yola düşüb.***

"Unikal" "Bakhtar" agentliyinə istinadən xəbər verir ki, səfər Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun dəvəti ilə həyata keçirilir.

Bu, "Taliban"ın Əfqanıstanda hakimiyyətə gəlməsi və yeni hökumət qurulmasından sonra ilk belə səfərdir. Görüşlərdə ikitərəfli münasibətlər, humanitar yardım, ticari-iqtisadi məsələlər müzakirə olunacaq.

# "Dövlət maraqları nəyi tələb edirsə, o addım da atılmalıdır"

## Mütəllim Rəhimli: "Qərarı verən hakimiyyətdirsə, gələcək məsuliyyət də onun üzərində qalacaq"



***Ədalət Partiyasının sədr müavini, politoloq Mütəllim Rəhimli "Unikal" qəzetinə müsahibə verib. M.Rəhimli ilə söhbətin mövzusu son günlər gərginləşən Azərbaycan-İran münasibətləri, gərginliyin regiona təsiri, ölkədaxili siyasi qüvvələrin prosesdə iştirakı və digər məsələlər barədə oldu.***

***-Son günlər İrandan Azərbaycana qarşı sərgilənən mövqe birmənalı qarşılanmır. Münasibətlərin bu səviyyəyə gəlməsinə səbəb nədir?***

-Qonşular arasındakı gərgin münasibətlərdən heç vaxt tərəflərdən biri zərər çəkmir, bu hər iki tərəfə mənfi təsir edir. Hətta iki dövlət arasında olan anlaşılmazlıqdan üçüncü tərflər də istifadə etməyə çalışırlar. Buna görə də, düşünürəm ki, həm İran, həm də Azərbaycan tərəfi bir addımı atmamışdan əvvəl ən azı iki dəfə düşünməlidir.

Münasibətlərin indiki duruma gəlmə səbəblərini araşdırdıqda buna birmənalı cavab vermək də çox çətindir. Çünki biz İranı regiondan kənarda yerləşən dövlətlərin, xüsusilə, Qərbin gözü ilə görə bilmərik. Onların İrana qarşı sərgilədiyi münasibət bizim əlaqələrimizə proyeksiya oluna bilməz. Əgər belə olarsa, bu, çox pis nəticələrə gətirib çıxara bilər.

Azərbaycanla İran arasında münasibətlər iki qonşu, ortaq mədəniyyəti, tarixi, ənənələri, dili, dini olan xalqlar arasındakı yaxınlıq nəzərə alınmaqla tənzimlənməlidir. Həm də dövlətlərin və xalqların qarşılıqlı gözləntiləri nəzərə alınmalıdır.

İndiki halda İranın Ermənistanı himayə edən siyasəti Azərbaycan dövləti və xalqı tərəfindən qəbul olunmur. Biz Ermənistanı torpaqlarımızı işğal edən ölkə kimi tanıyırıq, İrana isə həmişə dost kimi baxmışıq. Təbii ki, dostumuzun bizimlə düşmənçilik edən bir ölkənin yanında olmasını görmək heç də xoş deyil və ən azı təəssüf doğurur.

Münasibətlər gərginləşəndə tərəflərin hər birinin deməyə sözü, özünəməxsus əsasları olur. Bu prizmadan yanaşsaq yəqin ki, İranın da bizə qarşı arqumentləri ola bilər. Bütün bunlar isə nəzərətdən çıxaraq emosiyalarla tənzimlənsə, yaxşı nəticələr doğurmayacaq.

***-Münasibətlərin müxtəlif istiqamətlərə çəkilməsində maraqlı qüvvələr var. Sanki ölkə daxilindən də, xaricdən də kimlərsə, vəziyyətin daha kritikləşməsini istəyir. Kimlər maraqlı ola bilər?***

-İrana qarşı aparıcı ölkələrin münasibəti uzun illərdir ki, aydındır. ABŞ başda olmaqla, bu ölkəyə qarşı biz uzun illərdir ki, siyasi və iqtisadi sanksiyaların tətbiq edildiyinin şahidiyik. Qərb dəfələrlə İranı "şər imperiyası" adlandırıb. Onlar İranda siyasi hakimiyyətin dəyişdirilməsi niyyətlərini və fəaliyyətlərini də gizlətmirlər. Ancaq Azərbaycan bu kampaniyada yer almayıb və bundan sonra da yer ala bilməz. Əgər bu gün ABŞ və Qərb Azərbaycan-İran münasibətlərində ölkəmizin mövqeyini təqdir edir və yaxud İranı tənqid hədəfinə gətirirlərsə, bu, Azərbaycanın milli maraqlarının və haqq davasının müdafiəsi sayıla bilməz. Heç kim heç nə olmadan başqasını müdafiə etməz. Ona görə də beynəlxalq müstəvidə bizə qarşı xoş jestləri ehtiyatla qarşılamalıyıq.

***-Belə bir məqamda ölkənin siyasi qüvvələri, Müxalifət nə etməlidir?***

- Milli və dövlət maraqları olan yerdə iqtidar, müxalifət bölgüsü aparıla bilməz. Lakin bu o demək də deyil ki, İranla bağlı siyasət haqqında fərqli fikir söylənilməsin. Çünki həqiqət yalnız bir şəxsdə və bir mövqedə ola bilməz. Hər zaman alternativlərə yer olmalıdır.

Düşünürəm ki, həlledici məqamlarda müxalifət iqtidarın siyasətini dəstəkləsə də, ən doğru yolun tapılması üçün yeni ideya və təkliflərlə çıxış etməkdən çəkinməməlidir. Xüsusilə, indiki məqamda kütlə şüuruna istinad edərək milli təəssübkeşliyin, millətçiliyin qızışdırılması fonunda bu xeyli cəsarət və enerji tələb edir. Lakin dövlətçilik prinsipləri tələb edir ki, müxalifət bu risqi üzərinə götürməlidir. Ona görə ki, bir müddət sonra həqiqət tamamilə aydın olacaq.

Müxalifət hakimiyyətin İranla bağlı siyasətini hər zaman tənqid edib. Əgər indi münasibətlər gərginləşibsə, bunun bir günahı da hakimiyyətin üzərindədir. Deməli, o indiyədək doğru-düzgün siyasət aparmayıb. Əgər indi müxalifətin mövqeyi tamamilə iqtidarın sərgilədiyi münasibətlə üst-üstə düşərdisə, bunun özü də böyük çatışmazlıq, qəbahət olardı. Bu siyasi kəsimin tükənməsi anlamına gəlmiş olardı. Yaxşı ki, siyasi düşərgədə az da olsa, İranla bağlı fərqli yanaşmalar da səslendirilir.

***-Rəsmi Bakının, hətta Prezidentin mövqeyi ortadadır. Qırmızı xətlərimizə yaxınlaşırlarsa, nə etməliyik. Reaksiyamız adekvat deyilmi?***

- Prezident indiki iqtidarın birinci şəxsidir və dövlət siyasəti də onun iradəsi əsasında formalaşdırılır və həyata keçirilir. Məsələ bundadır ki, mövcud iqtidar İranla bağlı siyasəti belə düşünür, qərarlar qəbul edir və real addımları indi olduğu kimi təsbit edir.

"Qırmızı xətt" məsələsinə gəldikdə isə bu xətt dövlət maraqları olmalıdır. Bu zaman dövlət maraqları nəyi tələb edirsə, o addım da atılmalıdır. Qərarı verən hakimiyyətdirsə, onun gələcək məsuliyyəti də onun üzərində qalacaq. Digər tərəfdən, İran ölkəmizin milli maraqlarına təhdid yaradırsa, bu zaman hakimiyyət müxalifət düşərgəsi ilə məsləhətləşmələr aparmalıdır. Lakin təəssüf ki, indiyədək bu baş verməyib. Bəlkə müxalifətin bu məsələ ilə bağlı daha real və obyektiv təklifi var və ona qulaq asmaq lazımdır.

Hakimiyyətin reaksiyasının adekvat olmağına gəlincə, bu mübahisəli məsələdir. Hər halda bizim iradlarımıza İranın sərt reaksiya verməsi göstərdi ki, iqtidar mövqeyini kifayət qədər sanballı şəkildə ortaya qoya bilməyib. İlk diplomatik hücum adekvat cavab tədbiri doğurub. Əslində isə bu belə olmamalı idi. Düşünürəm ki, bütün bunlar biz tərəfdən yol verilmiş qüsurların və yaxud düzgün formalaşdırılmamış siyasətin nəticəsində meydana çıxıb. Ona görə də kompleks şəkildə məsələyə yanaşdıqda reaksiyamızı o qədər də qənaətbəxş saymaq olmaz.

***-İsraillə və Türkiyə ilə münasibətlərimizin daha da sıxlaşması İranı narahat edirsə, nə etməliyik? İran narahat olur deyə, dostumuzu düşmənimizi onlara uyğunlaşdırmalıyıq?***

- Dövlətin xarici siyasəti yalnız özünün maraqlarını qorumalıdır, qonşuları isə təhdid və narahat etməməlidir. Ona görə də Azərbaycan hər hansı ölkə ilə münasibət qurarkən qonşuları ilə məsləhətləşmək məcburiyyətində deyil. Biz müstəqil dövlətik və özümüzün milli maraqlarımız var, onu da qorumalıyıq. İranın mənafelərini isə özü müdafiə etməlidir. Bu zaman qarşılıqlı ittihamlara yol vermək böyük səhvdir.

İranı narahat edən amilləri Azərbaycan tərəfi də nəzərə almalıdır. Bu qonşuluq prinsiplərində də belədir. Adicə bir şəxs evində təmir işləri aparарkən divar qonşusuna məlumat verir, onu narahat edən saatlarda, xüsusilə axşam vaxtı səs-küyə yol vermir. Bu baxımdan əgər respublikamızın Türkiyə və İsraillə münasibətlərinin daha da yaxınlaşmasından İran narahat olursa, bu barədə açıq şəkildə, diplomatik yollarla fikrini hakimiyyətə çatdırmalıdır. Lakin bunu indiki kimi ittiham dili ilə səsləndirməməlidir. Azərbaycan tərəfi də buna əsaslandırılmış arqumentlərlə cavab verməlidir.

Eyni zamanda, İran da bizi inandırmalıdır ki, Ermənistanla əlaqələri bu ölkənin bizə qarşı güclənməsi ilə nəticələnməyəcək. Bütün bunları isə soyuq ağıla söykənən diplomatik danışıqlar vasitəsilə həll etmək olar.

***Z.Məmmədli***

# Etibar Pirverdiyevin bankı ilə bağlı ilginc gəlişmə

## Sabiq "işıq şefi" iştirak payını satmağa hazırlaşır?

***Qeyri-rəsmi şəkildə “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin keçmiş prezidenti Etibar Pirverdiyevə məxsus olduğu bildirilən ”Expressbank” 4 noyabr 2021-ci il tarixində “Expressbank” ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcək.***

Yığıncağın keçirilməsi Bankın Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti 37 (Dəmirçi Tauer Biznes Mərkəzinin 8-ci mərtəbəsi, otaq 8 A) ünvanında yerləşən inzibati ofisində, təyin edilib. Keçiriləcək yığıncaqda gündəmdə olan məsələlər “Expressbank” ASC-nin 2019-2021-ci illər üzrə yenilənmiş “Strateji planı”nın təqdimatı, cari və təşkilati məsələlərlə yanaşı bankın səhmdarlarının nizamnamə kapitalındakı iştirak paylarının dəyişməsi ilə bağlıdır.

İştirak paylarının necə dəyişəcəyi bəlli deyil, bu isə indidən müəyyən versiyalara yol açıb. İstisna edilmir ki, adıçəkilən bank Pirverdiyevin nəzarətindən tam, yaxud qismən çıxa bilər.

Onu da bildirək ki, paytaxtdan kənarda cəmi 7 rayonda filialı, bütün ölkə üzrə üst-üstə 60 bankomatı mövcud olan və “cırtdan bank” sayılan “Expressbank” son illərdə xeyli zəifləyib. Qeyd edək ki, vaxtilə ölkənin bank sistemində əsasən valyutadəyişmə əməliyyatları üzrə diqqət çəkən “Expressbank”ın əhali arasında “devalvasiya panikası” yaratmaqda da təcrübəsi var.

Xatırlatmaq yerinə düşər ki, 2018-ci ildə 54 yaşlı Pirverdiyevin karyerası biabırçı şəkildə başa çatdı. O, ”Azərenerji” ASC-nin prezidenti vəzifəsindən azad edildi. Pirverdiyevin işdən çıxarılması həmin il iyulun 3-də Mingəçevir şəhərində fəaliyyət göstərən ölkənin ən böyük elektrik stansiyası olan ”Azərbaycan” İES-in 1-ci və 6-cı enerji blokunda partlayışla birbaşa əlaqəli idi. Bütün ölkəni işıqsız qoyan, dövlətə və əhaliyə böyük ziyan vuran bu hadisədən dərhal sonra ölkə başçısı baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzaladı. Dövlət Komissiyasının bir müddət sonra hazırladığı yekun rəydən baş verən hadisədə Pirverdiyevin məsuliyyəti aydın ifadə edilmişdi. Bunun üzərindən çox keçmədi ki, Pirverdiyev vəzifədən azad edildi, ardınca isə onun biznesinin böhranla üzləşdiyi barədə məlumatlar gəldi. ”Azərenerji” rəhbəri olarkən şirkətləri ”qaz vurub qazan dolduran” Pirverdiyev işsiz qalınca həmin şirkətlərin öncə gəlirləri kəskin azaldı, sonra isə onlar hətta bağlanmaq həddinə çatdı. Hazırda da sabiq ”işıq şefi”nin nəzarətindəki biznes qurumlarının durumu ürəkaçan deyil; bu sırada zaman-zaman ”Expressbank”ın da adı çəkilir. Bildirilir ki, üç il öncə ölkə başçısının vəzifədən azad etdiyi Etibar Pirverdiyevin ”vurulması” ilə bu bank çətin günlər yaşamağa, müştərilərini itirməyə başlayıb.



Qeyd edək ki, hazırda bankın səhmdarlarından biri Hikmət Xammədovdur. E.Pirverdiyevin yaxın qohumu, daha da konkretləşdirsək, qaynı olan bu şəxs “Expressbank”ın səhmlərinin 16%-ə sahibdir. Eyni zamanda “Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları” ASC-nin 98,5 faizini əlində saxlayan Xammədovun adıçəkilən bankdakı iştirak payını sata biləcəyi də iddia edilir.

Bundan başqa, bankın ən iri payçısı ”Azenco Group MMC” (48.78 faiz pay) keçmiş ”işıq şefi”nin şirkətidir. Elə digər iri payçı - ”Enerqoservis MMC” (21.57 faiz) haqqında da bunu demək olar.

İstisna deyil ki, Pirverdiyevə məxsus şirkətlərin hər ikisi, yaxud ikisindən birinin iştirak payında da dəyişiklik baş versin.

Bir sözlə, gözləntilər ”Azərenerji”nin sabiq rəhbərinin ”Expressbank”dakı səhmlərinin bir hissəsinin əl dəyişdirə biləcəyi yönündədir. Hətta, yuxarıda da vurğuladığımız kimi, bankın keçmiş ”işıq şefi”nin nəzarətindən tamamilə çıxa, yaxud çıxarıla biləcəyi də istisna olunmur.

Xatırladaq ki, “Expressbank” ASC 21 iyun 1989-cu il tarixində təsis olunmuş və uzun müddət “Azərnəqliyyatbank” adı altında fəaliyyət göstərmişdir. Bank öz fəaliyyətini Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 30 dekabr 1992-ci il tarixində verilmiş lisenziya əsasında həyata keçirir. Bankın Səhmdarlarının Ümumi Yığıncağının 01 fevral 2010-cu il tarixli qərarı ilə “Azərnəqliyyatbank” ASC-nin adı dəyişdirilərək “Expressbank” ASC adlandırılmış və Nizamnaməyə müvafiq dəyişiklik 04 mart 2010-cu il tarixində dövlət qeydiyyatına alınmışdır.

***Toğrul Əliyev***

# 3 il həbsdə qalan MTN polkovnikinə bəraət verildi



***2007-ci ildə həbs olunmuş MTN polkovniki Rafət Əliyevə bəraət verilib.***

Unikal.org ”Kriminalqafqaz”a istinadən xəbər verir ki, Ali Məhkəmə kassasiya şikayətinə baxaraq müəyyən edib ki, R.Əliyevin təqsirli bilindiyi hər iki maddə (CM-302, 341.1) üzrə ümumiyyətlə heç kim zərərçəkmiş şəxs kimi tanınmayıb. İşin faktiki halları üzrə xüsusi texniki vasitələrin quraşdırılması ilə bağlı məhkumun rəis kimi qulluq mövqeyindən suiistifadə etməklə və yaxud qulluq səlahiyyətlərini aşmaqla hər hansı qanunsuz bir hərəkətə yol verməsi təsdiq olunmayıb.

Onun vəkili Şaiq Hüseynovun verdiyi vəsatətə Ali Məhkəmədə baxılıb. Cinayət Kollegiyasının qərarı ilə R.Əliyev barəsindəki cinayət işinə bəraətverici əsaslarla xitam verilib.

İttihama görə, R.Əliyev rəisi olduğu şöbənin Heydər Əliyev Beynəlxalq Hava Limanındakı xidməti otaqlarda və dəhlizdə informasiyaların gizli yolla götürülməsi üçün xüsusi texniki-elektron vasitələr və texniki sızma kanalları quraşdırmaqda günahkar bilinirdi. İşin hallarında göstərilib ki, R.Əliyev 2002-ci ilin yayında informasiyanın gizli yolla götürülməsi üçün nəzərdə tutulan xüsusi texniki vasitələr almağı və onları MTN-nin Hava Limanında yerləşən müvafiq xidməti otaqlarına və dəhlizinə quraşdırmağı Tahir Əsədzadəyə tapşırıb.

R.Əliyevin kassasiya şikayətində bildirilib ki, nə ibtidai istintaq orqanı, nə də məhkəmələr iş üçün müstəsna əhəmiyyət kəsb edən xüsusatlara hüquqi qiymət verib: “Rafət Əliyevin cinayət əməllərinin yerinə yetirməsini təsdiq edən heç bir sübut olmayıb. Həmin texniki vasitələr MTN-nin ovaxtki rəhbərliyi tərəfindən 2002-ci ildə alınıb, hava limanının binasında 2003-cü ilin yayında, sərnişin axınında saxlanılan qanunsuz miqrant və terrorçuluqda şübhəli əcnəbilərin gizli sorğularının aparılması məqsədilə quraşdırılıb. Dövlət Təhlükəsizlik Xidmətindən verilən məktubda qeyd edilib ki, həmin texniki vasitələr şəxsi maraq üzündən və şəxsi vəsaiti hesabına xidməti otaqlarda quraşdırılmayıb”.

Ali Məhkəmə kassasiya şikayətini təmin edib. Ağır Cinayətlərə Dair İşlər Üzrə Hərbi Məhkəmənin 13 iyun 2008-ci il tarixli hökmü və Bakı Apellyasiya Məhkəməsinin Hərbi Məhkəmələrin işləri üzrə Məhkəmə Kollegiyasının 7 oktyabr 2008-ci il tarixli qərarı R.Əliyevə aid hissədə ləğv edilib. Onun Cinayət Məcəlləsinin 341.1 və 302.2-ci maddələri ilə əməlində cinayət tərkibi olmadığına görə barəsində olan cinayət işi üzrə icraata bəraətverici əsaslarla xitam verilib.

Xatırladaq ki, R.Əliyev AZAL-ın Aviasiya Təhlükəsizliyi İdarəsinin rəisi Emil Süleymanov, idarənin Operativ İdarəetmə Xidmətinin rəisi Tamerlan Mikayılov, xidmətin mühəndis-elektronçusu Tahir Əsədzadə və idarənin mühəndis-proqramçısı Faiq Quliyevlə birlikdə hava limanındakı müxtəlif xidməti otaqlara dinləmə cihazı yerləşdirilməsi ittihamı ilə həbs edilmişdi. 2008-ci ildə Ağır Cinayətlərə Dair İşlər Üzrə Hərbi Məhkəmənin hökmü ilə E.Süleymanov 15 il, T.Mikayılov 2 il 6 ay, T.Əsədzadə 2 il 6 ay, F.Quliyev 2 il və MTN-nin polkovnik-leytenantı Rafət Əliyev 3 il azadlıqdan məhrum edilmişdi.

Bu hadisə zamanı mediada yayımlanan məqalələrdə iddia olunub ki, Rafət Əliyev MTN-in sabiq rəhbəri Namiq Abbasova yaxın kadr olduğu üçün o dönəmdə yeni vəzifəyə gələn və hazırda işsiz olan Eldar Mahmudovun göstərişi ilə həbs edilib.

# Ermənilər Qarabağı birdəfəlik tərk edir

***Üçtərəfli sazişin imzalanmasından sonra, Ermənistan və Rusiya KİV-i durmadan ərazidə qeyri-qanuni şəkildə məskunlaşan ermənilərin geri dönüşündən yazırdı. ”Dinc sakinlərin Qarabağa qayıdışı” adı ilə tirajlanan xəbərlər Azərbaycan tərəfini narahat etmirdi. Çünki onlar ya ”evlərini” satıb gedəcək, ya da Azərbaycanın idarəçiliyi altında yaşayacaqlar.***

Unikal.org xəbər verir ki, bu dəfə də ermənilərin Qarabağı tərk etməsinin yeni görüntüləri əks olunub. Həm də onlar evlərini sataraq, bir daha geri dönməmək üzrə Azərbaycan torpaqlarını tərk edirlər.

”Ermənistanın ”list.am”, ”full.am” kimi daşınmaz əmlak saytları, eləcə də ixtisaslaşmış Feysbuk səhifələrinin monitorinqinə əsasən müəyyən olunub ki, cari ilin üçüncü rübünə olan vəziyyətə görə, Xankəndində 114, Xocavənd şəhərində isə 64 yaşayış yeri satışa çıxarılıb. Xankəndində evlərin hər kvadratmetrinə görə orta qiyməti 600-650, Xocavənddə isə 600-800 dollar arasında dəyişir”, - deyə ”Caliber.az”ın yaydığı videomaterialda bildirilib.



## Qarabağ çayları ilə bağlı layihə hazırlanır

***İşğaldan azad olunmuş ərazilərdə çirklənmiş çayların biofiltrlər vasitəsilə təmizlənməsi pilot layihəsinin həyata keçirilməsi nəzərdə tutulub.***

"Unikal"ın məlumatına görə, bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli bildirib.

Q.Təhməzli qeyd edib ki, layihə çərçivəsində əkin sahələrinin suvarılmasında istifadə ediləcək suyun toksiki maddələrdən bioloji əsaslı filtirlər vasitəsilə təmizlənməsi həyata keçiriləcək.

Onun sözlərinə görə, İnstitut (AQTİ) tərəfindən 9 elmi-tədqiqat layihəsi həyata keçirilib və hazırda bir sıra elmi-tədqiqat işləri davam etdirilir: "Onlardan əkinçilikdə istifadə edilən yeni nəsil mikrobioloji məhsullar, antibiotiklərin quşçuluqda istifadəsi və antibiotiklərə dözümlülüyün elmi qiymətləndirilməsi mövzularında elmi-tədqiqat işləri həyata keçirilib və ilkin nəticələr əldə olunub".

## "Taliban"ın nümayəndələri Moskvaya səfər edəcək - Zaxarova

***Əfqanıstanda hakimiyyəti ələ keçirmiş "Taliban" hərəkatının nümayəndə heyəti gələn həftə Moskvaya səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova məlumat verib.

"Gələn həftə "Taliban" hərəkatının nümayəndə heyətinin Əfqanıstan üzrə "Moskva formatı"nda məsləhətləşmələrinin üçüncü raundunda iştirak etmək üçün Rusiyanın paytaxtına gəlişini gözləyirik", - Zaxarova əlavə edib.

## Daha bir marşrut xəttinin hərəkət sxemi dəyişdirildi

***101 nömrəli marşrut xəttinin hərəkət sxemində dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyi məlumat yayıb. Bildirilib ki, Bakının Xəzər rayonunun Türkan qəsəbəsinin sakinlərinin Mərdəkan qəsəbəsi istiqamətində birbaşa gediş-gəlişinin təmin edilməsi, eyni zamanda Qala dəmir yolu stansiyası - Mərdəkan qəsəbəsi üzrə müntəzəm marşrutun fəaliyyət göstərmədiyi nəzərə alınaraq qeyd olunan marşrut xəttinin hərəkət sxemi dəyişdirilib.

Dəyişikliyə əsasən, bu gündən marşrut xəttinin son dayanacaq məntəqəsi Mərdəkan qəsəbəsi (stansiya) olacaq.

# Əbülfəs Qarayev müəmması...

## Onun müavini olmuş Rafiq Babayevin cəzası niyə yarıbayarı azaldıldı?

***Yola salmaq üzrə olduğumuz həftə diqqətçəkən xəbərlərdən biri Bakı Apellyasiya Məhkəməsinin çıxardığı qərarla bağlı idi. Belə ki, avqustun 17-də həmin məhkəmənin qərarı ilə 8 il azadlıqdan məhrum edilmiş Rafiq Babayevin cəzası iki ay keçməmiş Bakı Apellyasiya Məhkəməsinin qərarı ilə yarıbayarı azaldılaraq, 4 il 6 aya endirildi.***



Xatırladaq ki, R. Babayev keçmiş mədəniyyət naziri Əbülfəs Qarayevin müavini olub. O, 2020-ci ilin may ayında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilmişdi. Əməliyyatın, habelə keçmiş müavinin rüşvət alması ilə bağlı gizli çəkilişin görüntüləri yayımlanmışdı.

R. Bayramova qarşı Cinayət Məcəlləsinin 311.3.3 (külli miqdarda rüşvət alma), 313 (vəzifə saxtakarlığı) və başqa maddələrlə ittihamlar irəli sürülmüşdü. Prokurorluğun ittiham aktında sabiq nazir müavininin tabeliyində olan müəssisələrin rəhbərlərindən aylıq rüşvət aldığı qeyd olunurdu. Bildirilirdi ki, həmin qurumların təmir-tikintisi üçün büdcədən ayrılan vəsaitlərin bir hissəsi ona çatıb. Ümumilikdə 1 milyon 800 min manata yaxın rüşvət və yeyintidən söhbət gedirdi.

İstintaq materiallarına görə, Rafiq Bayramov Mədəniyyət Nazirliyinin Sumqayıt Regional İdarəsindən 167 505 manat, Xaçmazdan müxtəlif zamanlarda 69 400 manat, 137 165 manat, 27 432 manat, 250 500 manat, 42 000 manat rüşvət götürüb. İsmayıllıdakı idarədən 126 165 manat və 16 000 manat, Kürdəmirdən 167 265 manat, Ağstafadan 166 965 manat və 16 000 manat, Şəmkirdən 181 465 manat alıb.

Məhkəmə prosesində R.Bayramov son sözünü deyərkən rüşvət almadığını bildirmişdi: "Müəyyən səhvlərə yol verib, məsuliyyətsizlik etmişəm. Bunlara görə də cənab Prezidentdən, məhkəmədən üzr istəyirəm. Mən ömrüm boyu dövlətimə xidmət etmişəm. Səhvlərim olub və bu da mənim təcrübəsizliyimdən, gəncliyimdən olub. Amma heç bir zaman korrupsiyaya bulaşmamışam. O insana cəza verilir ki, əməlindən islah olunsun. Mən rüşvət almamışam, nədən islah olunacam?"

Bununla belə, sabiq müavinin eks-nazir barədə ittihamedici fikirlər səsləndirməməsi diqqət çəkirdi. Halbuki onunla bərabər həbs edilən Mədəniyyət Nazirliyinin Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin keçmiş rəisi Zakir Sultanov haqda bunu demək mümkün deyil.

Öncə onu qeyd edək ki, Sultanovla bağlı fərqli qərar verilib. İstintaqın sonunda Sultanovun işi üzrə icraat ayrılıb. R.Bayramov məhkəmə qarşısına tək çıxarılıb. Bu məqamı maraqlı edən isə keçmiş Xidmət rəisinin məhkəmə prosesində ifadə verərək, Əbülfəs Qarayevin məhkəmədə dindirilməsini tələb etməsidir. Z.Sultanov bildirmişdi ki, nazirlikdə həyata keçirilən bir çox işlərdən Ə.Qarayevin xəbəri olub. Lakin keçmiş Xidmət rəisinin tələbi yerinə yetirilmədi. Yəni sabiq nazir məhkəməyə dəvət olunmadı.

Bunun fonunda Qarayevlə bağlı susqunluq nümayiş etdirən R.Bayramovun cəzasının yarıbayarı endirilməsi diqqət çəkməyə bilməz. Belə iddialar var ki, ola bilsin, sabiq nazir hələ də sahib olduğu müəyyən kanallar vasitəsilə onu "ayağa verməyən" müavinini "mükafatlandırmağı" bacarıb, yəni onun cəzasını əhəmiyyətli şəkildə azalda bilib.

Hər bir halda Ə.Qarayev barədə susan R.Bayramovun həbs müddəti yarıbayarı endirilərkən onu suçlayan Z.Sultanov barədə belə bir qərar verilməməsi maraq doğurur.

Onu da deyək ki, keçmiş işçiləri həbs olunduqdan sonra bu prosesin sabiq nazirin özü ilə davam edəcəyinə dair ciddi gözləntilər vardı. Çünki açıq-aydın ortaya çıxmışdı ki, Mədəniyyət Nazirliyində illər uzunu yeyintilər, rüşvət dərin kök salıb. Bu barədə təkzibolunmaz faktların bir ucu isə məhz Əbülfəs müəllimə çıxır. Bu səbəbdən onun da məsuliyyətə cəlb ediləcəyi şübhə doğurmurdu. Hətta deyilirdi ki, R.Bayramov və Z.Sultanovun həbsindən sonra sabiq nazir də bir neçə dəfə istintaqın suallarını cavablandırmalı olub. Üstəlik, bir ara Qarayevin Azərbaycanı tərk etmək istəyərkən sərhəddən qaytarıldığı barədə də məlumat yayılmışdı. Lakin sabiq nazirlə bağlı gözləntilər doğrulmadı - o, düşdüyü çətin vəziyyətdən sadəcə nazir postunu itirməklə qurtula bildi. Düzdür, prosesi tam bitmiş saymaq olmaz, gələcəkdə bir zamanlar Mədəniyyət Nazirliyini ağuşuna almış korrupsiya əməlləri ətrafında yeni araşdırmaların başlanması, həbslərin aparılması mümkündür, bununla belə, görünən odur ki, eks-nazir hələlik belə bir təhlükə ilə qarşı-qarşıya deyil...

***Hüseyn İsgəndərov***

# Kaliforniya şəhərində Azərbaycan Günü elan olunub

***Azərbaycanın Dövlət Müstəqilliyinin bərpasının 30-cu ildönümü ilə əlaqədar ABŞ-ın Kaliforniya ştatının ikinci ən böyük şəhəri olan San-Dieqo şəhərinin meri Tod Qloria xüsusi bəyannamə imzalayaraq, 18 oktyabr tarixini San-Dieqo şəhərində "Azərbaycan Müstəqilliyinin Bərpası Günü" elan edib.***



Bu barədə "Unikal"a Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan məlumat verilib. Bəyannamədə bildirilir ki, Azərbaycan 1991-ci ilin oktyabrın 18-də müstəqilliyini bərpa edərək, özünü 1918-ci ilin 28 may tarixində yaradılmış, müsəlman dünyasında ilk dünyəvi respublika olan və qadınlara ilk dəfə səsvermə hüququ verən Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edib.

Qeyd olunur ki, Azərbaycan 30 il ərzində öz müstəqilliyini və suverenliyini möhkəmləndirərək, ABŞ-ın Cənub Qafqaz bölgəsində strateji müttəfiqinə və ən böyük ticarət tərəfdaşına çevrilib. Həmçinin vurğulanır ki, bu gün Azərbaycan beynəlxalq aləmdə müsəlman, xristian və yəhudilərin sülh və harmoniya içərisində yaşadığı uğurlu model kimi tanınır.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu və Los-Anceles Konsulluq Korpusunun duayeni Nəsimi Ağayev San-Dieqo şəhərinin meri T.Qloriyaya təşəkkür edərək, San-Dieqo ilə Bakı arasında 2011-ci ildə yaradılmış və çoxsaylı tədbirlər və qarşılıqlı səfərlərlə son 10 il ərzində gücləndirilmiş tərəfdaşlıq münasibətlərindən məmnunluğunu bildirib. Oktyabrın 18-də Bakı-San-Dieqo tərəfdaşlığının 10-cu ildönümünün də tamam olduğunu qeyd edən baş konsul, bu münasibətlərin qarşıdakı dövrdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

# Emin Əmirullayevin adından saxta arayış?!

## Bakı Humanitar Kollecində ciddi qalmaqal yaşanır

***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) nəzdində fəaliyyət göstərən Bakı Humanitar Kollecinin (Keçmiş Mədəni Maarif Texnikumu) 67 müəllimi işdən çıxarılıb. Çıxarılan müəllimlərdən 46-sı ali təhsilli müəllim, 21 orta ixtisas təhsilli şəxslər, 5-i isə şöbə müdirləridir.***

Bildirilir ki, müəllimlərin işdən çıxarılması ilə bağlı əmri Kollecin direktoru Nərmin Qaralova verib.

Yerli mətbuatda kollecin tədris işləri üzrə direktor müavini Kamran Məsimovun səs yazısı yayılıb. Səs yazısında Kamran Məsimov qeyd edib ki, bu müəllimlər Ceyhun Bayramovun təhsil naziri olduğu dönəmdə qeyri-qanuni işə götürülüb və 67 müəllimin qovulmasını isə hazırkı təhsil naziri Emin Əmrullayev tapşırıb, yəni onun adından kollecə arayış təqdim olunub. Qəribəsi odur ki, Təhsil Nazirliyi belə bir arayışın olmadığını deyir.

Buradan iki nəticə çıxır: ya Bakı Humanitar Kollecin rəhbərliyi onlarla müəllimi işsiz qoymaq üçün Əmirullayevin adından sui-istifadə edir və bu zaman hansısa "saxta arayış"a sığınır, ya da nazirlik yaranmış qalmaqaldan kənarda qalmaq üçün belə bir arayışın mövcudluğunu inkar edir.

Daha bir maraqlı məqam isə K.Məsimovun qovulan müəllimlərin əvvəlki nazirin zamanında işə götürülməsini xüsusi vurğulamasıdır. Bununla direktor müavininin nəyə işarə etdiyini elə onun özündən soruşub dəqiqləşdirmək lazımdır.

Üstəlik, kollec direktoru öz müavinindən fərqli olaraq müəllimlərin işdən azad edilməsi ilə bağlı bir müddət əvvəl fərqli əsas gətirib. O deyib ki, Bakı Humanitar Kollec 2021-ci ildə publik



hüquqi şəxs kimi qeydiyyata alınıb və sözügedən təhsil müəssisəsində bununla bağlı bir sıra təşkilati dəyişikliklər həyata keçirilməkdədir. Sitat: "Bu dəyişikliklər nəticəsində kollecin işinin daha səmərəli və optimal qaydada təşkili məqsədilə bir sıra struktur bölmələri yenidən təşkil olunur və bu bölmələrdə çalışan müəllimlərə dərs saatları təklif edilir. Qeyd edək ki, bundan əvvəl cəmi 1 400 tələbəsi olan təhsil müəssisəsində dərs deyən müəllimlərin sayı 320 nəfər olub ki, bu da orta ixtisas təhsil müəssisələrinin müvafiq nümunəvi ştat cədvəllərində nəzərdə tutulmuş saya uyğun deyil. Müəyyən edilib ki, Humanitar Kollecin müəllimləri arasında bəzi müəllimlər orta ixtisas müəllimləridir ki, bu da qanunvericiliyin tələblərinə ziddir".

Daha bir maraqlı məqam ondadır ki, kollec direktoru müəllimləri işdən azad edərkən əmək qanunvericiliyinin tələbinə əsasən onları öncədən xəbərdar etməyib. Hər halda işini itirən müəllimlər belə deyirlər və onları ən çox narazı salan detallardan biri də budur. Üstəlik, onlar adıçəkilən kollecdə işə qəbul olunmalarında və işlərini davam etdirmələrində hər hansı qanunsuzluq olmadığına da əmindirlər.

Görünən odur ki, adıçəkilən təhsil müəssisəsinin rəhbərliyi müəllimləri hətta haqlı olaraq işdən azad etsə belə, bu prosesi doğru idarə edə bilməyib və nəticədə ortaya ciddi qalmaqal çıxıb.

Xatırladaq ki, Bakı Humanitar Kollecinin direktoru N.Qaralova bu vəzifəyə ötən ilin dekabrında təyin edilib. Bundan bir müddət sonra yeni direktor cəmiyyətdə geniş əks-səda doğuran qalmaqalla gündəmə gəlib. Belə ki, o, distant formada keçirilən imtahan zamanı xanım tələbəni xoşagəlməz ifadə ilə təhqir edib. Bu isə xüsusilə sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Direktorun tələbəni təhqir etməsi iddiası ilə bağlı yayılan məlumatlarla əlaqədar olaraq Təhsil Nazirliyində araşdırmalara başlanılıb.

Sonradan ADMİU-dan bildirilib ki, bununla bağlı məsələ universitet rəhbərliyi tərəfindən araşdırılıb və kollec direktorundan izahat alınıb: "Müəyyən olunub ki, qeyd olunan səs yazısı kollecin məsafədən təşkil olunan imtahanlarından biri zamanı yazılıb və burada kontekstdən çıxarılıb. Bununla belə, kollec direktoru onlayn imtahan zamanı işlətdiyi ifadəyə görə tələbələrdən üzr istəyib. Kollec direktoru ilə bağlı inzibati tənbeh tədbiri görülüb".

Qeyd edək ki, yerli mətbuat Nərmin Qaralova ilə bağlı maraqlı bir məqama da diqqət çəkib. Belə ki, o, əslən Gürcüstan Respublikasının Başkeçid rayonunun Ormeşan kəndindəndir. Kollec direktoru ilə eyni soyada sahib olan sabiq Baş Prokuror Zakir Qaralov da əslən Ormeşan kəndindəndir.

***Sənan Mirzə***

# "MTN əməkdaşları məndən 315 min dollar aldılar" - Polkovnik

***Azərbaycanın ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Hərbi əks-Kəşfiyyat Baş İdarəsinin sabiq rəisi general Şirinov Nizami Talış oğlu və qurumun tərkibində olan idarələrin rəisləri işləmiş Elcan Abdullayev və Elman Tahirov, əməliyyat müvəkkili işləmiş Nadir Nəzirovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.***

Bakı Hərbi Məhkəməsinin hakimi Camal Ramazanovun sədrliyi ilə keçirilən prosesdə zərərçəkmiş qismində Müdafiə Nazirliyinin sabiq əməkdaşı, polkovnik Mirzəli Yusifov dindirilib.

O deyib ki, 2009-2013-cü illərdə Azərbaycan Ali Hərbi Məktəbinin (AAHM) rəisi vəzifəsində çalışıb: "2007-ci ildə MTN-in Hərbi əks-Kəşfiyyat Baş İdarəsinə çağırıldım. İdarədə mənə saxta ittihamla cinayət işi



açacaqlarını bildirdilər və həbs edəcəkləri ilə şantaj olundum. Onlar məndən əvvəl 275 min dollar, daha sonra isə 25 min dollar pul aldılar. Bir qədər sonra isə 15 min dollar pul verməyə məcbur olundum. Ümumilikdə məndən 315 min dollar pul alındı".

M.Yusifov söyləyib ki, 2013-cü ildə AAHM rəisi vəzifəsindən azad olunandan sonra yenidən Hərbi əks-Kəşfiyyat Baş İdarəsinə dəvət edilib: "İdarədə məni döydülər, qulaqlarımın pərdəsi deşildi. Həmin vaxtı nazirliyin əməkdaşları Elcan Abdullayev və Nadir Nəzirov orada iştirak edirdi. Onlar məndən 300 min dollar pul tələb etdilər. Həmçinin həmin şəxslər sabiq müdafiə naziri Səfər Əbiyevin əleyhinə ifadə verməyimi tələb etdilər. İmtina etdim. Bildirdilər ki, eyni kamerada Səfər Əbiyevlə birgə saxlanılacam, digər kamerada isə general Məmməd Beydullayev və Hərbi Dəniz Qüvvələrinin sabiq komandanı, vitse-admiral Şahin Sultanov da olacaq. Mən qəti şəkildə bundan imtina etdim. Elə də oldu, rüşvət almaqda ittiham olunaraq saxlanıldım. 2 il 2 ay müddətinə azadlıqdan məhrum edildim, cəzamı isə çəkib azadlığa çıxdım".

Növbəti proses oktyabrın 21-də davam etdiriləcək.

## KTMT-dan önəmli Qarabağ AÇIQLAMASI

***Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Qarabağla bağlı yeni açıqlama verib.***

"Unikal" Rusiya KİV-nə istinadən xəbər verir ki, KTMT-nın Birləşmiş Qərargahının rəisi Anatoli Sidorov Qarabağ məsələsinin yekun siyasi həlli üçün şərait yarandığını deyib.

"Rusiyanın vasitəçiliyi ilə hərbi əməliyyatları dayandıra bildik. Hazırkı zamanda əldə olunmuş razılaşmalar Qarabağ ətrafındakı böhranının yekun siyasi həlli üçün kifayətdir".

Sidorov atəşkəs rejiminin bəzən pozulmasına baxmayaraq, Bakı ilə İrəvan arasında dialoqda pozitiv əlamətlərin olduğunu söyləyib.

## Azərbaycanda 20 minə yaxın şəxsə əks-göstəriş sertifikatı verildi

***Bu günə qədər ümumilikdə 20 minə yaxın şəxsin əks-göstəriş sertifkatı ilə bağlı müraciətinə müsbət cavab verilib.***

Bu barədə Unikal.org-un sorğusuna cavab olaraq Səhiyyə Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, həmin vətəndaşlar artıq əks-göstəriş sertifikatı alıblar.

## Azərbaycanda iş adamı həbs edildi

***"Riyad" Şirkətlər Qrupunun rəhbər şəxslərindən biri İlham Məmmədov həbs edilib.***

"Unikal" xəbər verir ki, İ.Məmmədov Cinayət Məcəlləsinin 296-cı maddəsi (bilə-bilə yalan xəbərçilik etmə) ilə təqsirli bilinirərək saxlanılıb.

Səbail Rayon Məhkəməsində istintaq orqanının verdiyi təqdimata baxılıb. Hakim İlkin Rüstəmli təqdimatı təmin edib və İ.Məmmədov barəsində 3 aylıq həbs qətimkan tədbiri seçib.

Qeyd edək ki, Şirkətlər Qrupuna "Riyad" Ticarət Mərkəzi, "Riyad" Mühafizə xidməti, "Azinteroil" MMC və digər şirkətlər daxildir.

## Polad Bülbüloğlunun keçmiş həyat yoldaşı vəfat etdi

***SSRİ-nin xalq artisti, opera müğənnisi Bela Rudenko vəfat edib.***

"Unikal"ın TASS-a istinadən verdiyi məlumata görə, B. Rudenko bu gün 88 yaşında dünyasını dəyişib.

Qeyd edək ki, B. Rudenko Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun keçmiş həyat yoldaşı olub.

Bela Rudenko 18 avqust 1933-cü ildə Ukraynada anadan olub. 1973-1988-ci illərdə Dövlət Akademik Böyük Teatrının solisti kimi çalışıb.

1992-ci ildə karyerasını başa vuran müğənni "Bolşoy" Teatrın İnkişaf Fonduna rəhbərlik edirdi.

# Sadə qaydalara riayət etməklə özünüzü bank dələduzlarından qoruyun!




***Son illər ölkə bankları tərəfindən nağdsız ödənişlərin stimullaşdırılması istiqamətinə bir sıra işlər həyata keçirilir.***

Unikal.org xəbər verir ki, əhalinin nağdsız ödənişlərə keçməsi, fiziki olaraq pul əskinazlarından istifadə etməməsi üçün müxtəlif aksiyalar, kampaniyalar və maarifləndirmə tədbirləri təqdim edilir. Nağdsız ödənişə keçidin bir çox üstün xüsusiyyətləri var. Lakin əfsuslar olsun ki, kart sahibləri hesablarında olan vəsaitin təhlükəsizliyinə bəzən dırnaqarası baxırlar.

"Kiber cinayətkarlıq" termini son vaxtlar ölkənin gündəmini zəbt edərək, hamımızın diqqət mərkəzindədir. Xüsusən də son aylar ərzində müəmmalı nömrələrdən edilən zənglər, göndərilən SMS-lər bank müştərilərinin dələduzların qurbanına çevrilməsi ilə nəticələnir. Əsasən müasir texnologiyalardan uzaq olan insanlar konfedensial kart məlumatlarını dələduzlara bildirməklə, hesablarında olan vəsaitin ələ keçirilməsinə şərait yaradırlar.

Məlumat üçün qeyd edək ki, ölkə üzrə ödəniş kartlarının (məvacib, təqaüd, müavinət, kredit, debit, taksit və s.) böyük hissəsi Kapital Bank-a məxsusdur. Demək olar ki, elə bir ailə yoxdur ki, orada Kapital Bank-ın ödəniş kartına sahib olan şəxs olmasın. Ona görə də dələduzlar zəng etdikdə, ilk olaraq ailədə Kapital Bank-a məxsus kart sahibi olduğunu dəqiqləşdirirlər. Kapital Bank da neqativ halların qarşısının alınması istiqamətində məlumatlandırıcı tədbirləri təşviq edir. Təbii ki, gördüyümüz tədbirlərin hamısını sadalamaq mümkün olmasa da, deyə bilərik ki, dələduzluq hallarının aradan qaldırılması üçün hüquq-mühafizə orqanları ilə sıx əməkdaşlıq edirik.

Lakin bu istiqamətdə müştərilərimizdən də gözləntilərimiz var: heç kiminlə, hətta ən yaxın tanışları, qohumları ilə belə kart məlumatlarını paylaşmasınlar. Kart məlumatları dedikdə ödəniş kartının üzərində olan 16 rəqəmli nömrə (PAN), PİN kod, kartın bitmə tarixi, kartın arxasında olan 3 rəqəmli kod (CVV2) və SMS ilə göndərilən birdəfəlik 3DSecure şifrəsi nəzərdə tutulur. Card-to-card köçürməsi üçün kartın üz tərəfinin fotosunu göndərməyə də ehtiyac yoxdur. Sizə pul göndərən şəxsə 16 rəqəmli PAN nömrəni yazmaq və ya Birbank-da kartın QR kodunu generasiya edib göndərmək kifayətdir.

Dələduzlar əksər hallarda özlərini bank nümayəndəsi kimi təqdim edir və konfedensial kart məlumatlarını tələb edirlər. Təqdim edilmədiyi təqdirdə kartın bloka salınacağını bildirirlər. Bu zaman heç də təşvişə düşməyə ehtiyac yoxdur. Heç bir halda bank nümayəndəsi yuxarıda qeyd olunan kart məlumatlarını müştəridən tələb etmir. Amma yenə də kart bloka düşərsə, buna görə də narahat olmaq lazım deyil. Birbank rəqəmsal bankı, 196 Məlumat Mərkəzi və ya filiala müraciət etməklə kartı asanlıqla blokdan çıxarmaq olur.

Ümumiyyətlə, dələduzluq əməliyyatları üzrə məsuliyyət Beynəlxalq ödəniş sistemlərini qaydaları ilə tənzimlənir. Kart vasitəsilə ödəniş əməliyyatlarında satıcı və alıcı iştirak edir. Satıcı qismində POS terminal və ya veb sayt ola bilər. Əməliyyatın aparılması şərtlərindən asılı olaraq ödəniş üzrə məsuliyyətin kimin üzərinə düşdüyü təyin edilir. Misal üçün, ödəniş zamanı sayt tərəfindən müştəridən 3DSecure şifrə istənilirsə və dələduz bu şifrəni düz daxil edərsə, artıq bütün məsuliyyət müştərinin üzərinə düşür.

Hamını maraqlandıran suallardan biri də olur ki, müştəri dələduzların qurbanına çevrilibsə, bu zaman nə etməli? Əgər belə bir hal baş verərsə, dərhal kartı bloklamaq, sonra isə banka müraciət etmək lazımdır. Bank əməkdaşı kartın sahibinə dələduzların əməliyyatı və silinmə platforması barədə məlumat təqdim edir. Sonra həmin məlumatlarla birgə hüquq-mühafizə orqanlarına müraciət etmək lazımdır. Əgər əməliyyat veb saytlarda 3Dsecure şifrənin daxil olunması ilə baş veribsə, beynəlxalq ödəniş sistemlərinin qaydalarına əsasən vəsaitlərin geri qaytarılması mümkün olmur. Əksinə, əməliyyat 3DSecure yoxlanışını dəstəkləməyən saytda baş verərsə, əməliyyat üzrə məsuliyyət satıcının üzərinə keçir. Bu hallarda ödənişlərin geri qaytarılması baş tuta bilər. Qeyd edək ki, dələduzların qurbanlarına çevrilən bir sıra müştərilərin pullarını geri qaytarmaq mümkün olub.

Kapital Bank olaraq bir daha ödəniş kartlarının sahiblərinə müraciət edərək bildirmək istərdik ki, yuxarıda qeyd olunan sadə qaydalara riayət etsinlər. Kartlarının üzərində olan məlumatları, həmçinin SMS vasitəsilə göndərilən 3Dsecure şifrəni heç bir halda üçüncü tərəfə ötürməsinlər. Kart hesabında olan vəsait, sizin pul qabınızda olan vəsaitlə eynidir. Ona görə də cibinizdə olan pul kimi, kartınızın balansında olan pulların da təhlükəsizliyini təmin etmək mütləqdir.

# Azərbaycanda milyonlar qazanan saxtakar şəbəkənin arxasındakı məmur izləri...

## Həftənin sualı: əhaliyə "enerji içkisi" adı altında saxta məhsullar satanları kimlər və niyə qoruyurlar?




***Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli 2021-ci ilin 9 ayı ərzində agentliyin fəaliyyətinə dair mətbuat konfransında çıxışı zamanı diqqətçəkən bir fakt açıqlayıb. Bildirib ki, rəhbəri olduğu qurum tərəfindən istehlak bazarında enerji içkisi adı altında istehlakçılara təqdim olunan alkoqolsuz içkilərin enerji içkisi olub-olmaması, eləcə də qaydalara uyğunluğunun müəyyən edilməsi məqsədilə monitorinqlər keçirilib və***

30 nümunə üzərində aparılmış müayinələr nəticəsində 5 nümunənin enerji içkisi olduğu təsbit edilib. Onlardan yalnız 1-nin etiketlənməsinin qaydalara uyğun olduğu, digər 4-nün isə uyğun olmadığı müəyyən edilib. Həm etiket məlumatlarının ekspertizası, həm də tərkib analizi nəticəsində qalan 25 nümunənin enerji içkisi olmadığı müəyyənləşib.Q.Təhməzli onu da qeyd edib ki, həmin 25 məhsul enerji içkisi olmadığı halda, üzərində istehlakçılarda enerji içkisi olduğuna dair təəssürat yaradan ifadələrdən istifadə edilib: "İstehlakçıları çaşdırmaqla qanunvericiliyin tələbini pozan istehsalçılara dair müvafiq tədbirlərin görülməsi üçün Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət olunub".

Ən maraqlısı (və bir az da qəribəsi!) odur ki, nə AQTA rəhbəri bu barədə ilk dəfə danışır, nə də biz bu haqda ilk dəfə eşidirik. Azərbaycanda enerji içkisi adı altında böyük bir saxtakarlıq şəbəkəsinin iş başında olduğunu artıq bilməyən yoxdur! Bilməyən yoxdur, ancaq əncam çəkən də, bu fırıldağa son qoyan da yoxdur!

İnsafən, elə təkcə bu il Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən enerji içkiləri bazarında aparılan araşdırmalar zamanı saxtakarlığa yol verən bir çox sahibkar barəsində iş qaldırıldığı açıqlanıb. Onların arasında "A+CO" ASC, "Berg Energy " MMC, "NPG Azərbaycan" MMC, "Avrora" MMC və "Veysəloğlu" MMC kimi şirkətlər var.

Lakin reallıq ondan ibarətdir ki, adıçəkilən Dövlət Xidməti tərəfindən aparılan yoxlamalar və cəza tədbirləri problemi aradan qaldırmağa kifayət eləmir. Hələ də bazarda saxta enerji içkiləri "at oynatmaqdadır".

Əslində həqiqi enerji içkilərinin özü də ciddi problemdir. Belə ki, bu içkilərin zərərli tərəflərini saymaqla bitmir: yuxu pozğunluğu, əsəb sistemi pozğunluğu, baş ağrısı, mədə-bağırsaq sisteminin xəstəlikləri, xoralar.... Bu içkilərin asılılıq yaratması da mənfi tərəflərindən biridir. Əvvəlcə bunu hiss etmək olmur, amma bir müddət sonra fərqində olmadan gün ərzində 3-4 enerji içkisi içdiyinizi görəcəksiz. Hətta Qida Təhlükəsizliyi Agentliyi bir neçə ay öncə son zamanlar cəmiyyətdə, xüsusən idmançılar arasında daha çox istifadə edilən enerji içkiləri ilə bağlı açıqlama yaymışdı. Agentlik gəncləri, o cümlədən, idmançıları bu içkilərdən istifadə etməməyə çağırmışdı. Həmçinin, bəzi televiziya kanallarına da enerji içkilərini təşviq edən hər hansı reklamdan çəkinmək tövsiyə edilmişdi. "Enerji içkisi istehlak etməklə, "Biz daha yaxşı fiziki gücə malikik" təəssüratı yaratmaq istehlakçıya verilmiş yanlış mesajdır. Tövsiyə edirik ki, tanınmış idmançılarımız bu tip enerji içkilərinin reklamında ehtiyatlı olsunlar" - qurumun açıqlamasında bildirilirdi.

Bir sözlə sözügedən içkilərin saya-hesaba gəlməyəcək qədər zərərlərinin olduğu mübahisəsizdir. Lakin mövzumuz bu deyil. Sadəcə, onu demək istəyirik ki, onsuz da insan sağlamlığı üçün ziyanlı olan enrji içkilərinin saxtalarının ortaya çıxması onun zərərini daha da artırır. Deməli, bu problemlə bağlı daha sərt, qətiyyətli addımların atılmasına, tədbirlərin görülməsinə ehtiyac var. Medianın, hətta müəyyən dövlət qurumlarının məsələni diqqətdə saxlamasına baxmayaraq belə addımlar atılmırsa, tədbirlər görülmürsə, ortaya sual çıxır: əcəba, niyə? Ona görəmi ki, bazara saxta enerji içkiləri çıxaran şəbəkə hansısa məmurların himayəsinə arxalanır, müəyyən nüfuzlu, imtiyazlı şəxslər tərəfindən qorunur? Bəli, istər Qida Təhlükəsizliyi Agentliyinin sədrinin son açıqlamasından, istərsə də Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin müxtəlif vaxtlardakı məlumatlarından aydın olur ki enerji içkiləri bazarının sağlamlıq üçün ümumi təhlükəsi bir yana, bu bazarda haqsız rəqabət baş alıb gedir, vətəndaşlara fərqli tərkibə malik məhsullar enerji içkisi kimi sırınmağa çalışılır. Deməli, belə qanunsuzluqlara yol verənlərin nəyə, yaxud kimə və ya kimlərə güvənərək, arxalanaraq bu əməllərlə məşğul olduğunu araşdırmaq da gərəklidir. Yalnız bu halda milyonlar qazanan saxtakar şəbəkəni durdurmaq, insanlarımızın sağlamlığını təhdid edən, genefondumuzu zərbə altında qoyan bir problemin sonuna çıxmaq mümkündür.

***Toğrul Əliyev***

## İctimai və dövlət maraqlarının müdafiəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İran Azərbaycana qarşı təhdid mesajlarını dayandırmalıdır

## E. Şahinoğlu: "İranın Azərbaycana qarşı son zamanlar tutduğu mövqe qəti şəkildə qəbuledilməzdir"

***İranla Azərbaycan arasında son günlər yaşanan hadisələr ictimaiyyət tərəfindən diqqətlə izlənilir. Cənub qonşumuz olan İranın Azərbaycanın torpaqlarını 30 ilə yaxın işğal altında saxlayan təcavüzkar dövlətlə sıx əməkdaşlıq etməsi, onlara dəstək verməsi təbii olaraq ölkəmiz tərəfindən birmənalı qarşılanmır. İranın Azərbaycana qarşı sərgilədiyi münasibətdən də görünür ki, bu dövlət İslami dəyərlərə, müsəlman qardaşlığına önəm vermir.***

İranın Azərbaycanla sərhədə qoşun və hərbi texnika toplaması, hərbi təlimlər keçirməsi bu ölkənin Azərbaycanı özü üçün təhlükə mənbəyi hesab etməsinin bariz nümunəsidir. İranın açıq şəkildə ermənipərəst mövqedə dayandığı, Azərbaycanla münasibətlərini gərginləşdirmək xəttindən geri çəkilmək niyyətində olmadığı, İranın dövlət rəsmilərinin son açıqlamalarından və atdıqları addımlardan da görsənir. Zəngəzur dəhlizinin açılışı İran üçün qorxulu bir yuxuya çevrilib. Qarabağ savaşında Ermənistana qanunsuz olaraq maddi-texniki dəstək göstərən İran illərdir işğal altında saxlanılan Qarabağda terror yuvasını görməzdən gəlsə də, indi bu torpaqlarda "sionist" axtarışındadır. Lakin ekspertlər bildirir ki, bu, İranın özünə qarşı baha başa gələcək.

Politoloq Elxan Şahinoğlu bildirir ki, İranın xarici işlər naziri "sərhədlərin dəyişdirilməsi, "terrorçular" və "sionistlər" dedikdə Azərbaycanı nəzərdə tutur: "Azərbaycan işğal altındakı torpaqlarını azad edib və Ermənistanla sərhədə çıxaraq Gorus-Qafan yolunun 21 kilometrini nəzarətə götürüb. Tehran bunu "sərhədlərin dəyişdirilməsi" kimi qiymətləndirir. Halbuki, Azərbaycan özünə aid olanı götürüb. Maraqlıdır ki, Ermənistanın özünün Gorus-Qafan yolunun 21 kilometrinin Azərbaycana məxsus olduğunu etiraf etsə də, Tehran dirənib ki, "sərhədlər dəyişdirilməməlidir".

Tehran müharibə günlərində düşmən saydığı Qərb ölkələrinin bəzi



mərkəzlərinə qoşularaq Azərbaycan tərəfdən "terrorçuların" savaşdığını səsləndirmişdi. Müharibədən sonra Qərbdə və Rusiyada "terrorçu" mövzusu unudulsa da, Tehran bu "mövzunu" yenidən diriltməyə və Azərbaycanın əleyhinə aktuallaşdırmağa çalışır. Nəhayət "sionistlər" mövzusuna gəldikdə, Tehran Azərbaycanda İsrail izi axtarmaqda davam edir".

E. Şahinoğlu deyir ki, Rusiya Azərbaycanla Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsinə etiraz etmir. Əksinə, bu mövzuyla bağlı təkliflərini həm Bakıya, həm də İrəvana göndərib: "Tehran isə Moskvaya demək istəyir ki, "sərhəd toxunulmazdır və işğaldan əvvəlki vəziyyətində" qalmalıdır. Bunun reallıqdan uzaq olduğunu Azərbaycan və Ermənistanla yanaşı Rusiya da anlayır. "Bölgədə terrorçular və sionistlər" var iddiasına gəldikdə, Tehran bu məsələdə də Kremli öz tərəfinə çəkə bilməyəcək. İsrail Rusiyaya dost dövlətdir və Tehranın bu iki dövlətin münasibətlərinə zərər vurması nəticə verməyəcək. Keçmişdə Ermənistan rəsmiləri Moskvaya Azərbaycandan şikayət etməyə gedərdilər. İndi onlara İran rəsmiləri də qoşulub. Ancaq ermənilərin şikayətləri işə yaramadığı kimi iranlıların da şikayətlərinin Tehran üçün heç bir faydası olmayacaq. Rusiya-Azərbaycan münasibətlərində suallar olsa da, Kreml başqalarının saxta ittihamları əsasında Azərbaycanla münasibətləri gərginləşdirməyəcək. Baxmayaraq ki, İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian Moskvada olarkən Azərbaycandan da şikayət edib. Hüseyn Əmir Abdullahian Moskvada jurnalistlərə ilk açıqlamasında bunları deyib: "İran bölgədə sərhədlərin dəyişdirilməsinə, terrorçuların və sionistlərin varlığına Rusiyanın da kəskin reaksiya verəcəyini gözləyir".

Qeyd edək ki, İranın Azərbaycanla sərhəddə sionist iddiasına Azərbaycan prezidenti elə İranla iki addımlıqda cavab verib. Prezident bildirib ki, İranla sərhəddə İsrail hərbçilərinin olması iddiası gülüncdür.

Onu da bildirək ki, İsrailin Rusiyadakı səfiri Aleksandr Ben Zvi ölkəsinin Silahlı Qüvvələrinin Qarabağda mövcud olması ilə bağlı fikrinə münasibət bildirib. O, bildirib ki, İsrail hərbçilərinin Qarabağda olması haqqında danışmaq böyük axmaqlıqdır, bu fikir fantaziyadan başqa bir şey deyil: " Bu məlumatlar cəfəngiyyatdır. Bu fikir Qarabağda marslıların olması kimi bir xəyala bənzəyir. Düşünürəm ki, bu fikir böyük axmaqlıqdır, Dağlıq Qarabağ bölgəsindən danışırıqsa, orada həm Rusiya, həm də Türkiyə var".

Halbuki, Azərbaycanda İsrailin nəinki hərbi bazası , Azərbaycanın İsraildə səfirliyi belə yoxdur. İran isə gərginlik yaradaraq, "sərhədimizin sionist bazasına çevrilməsinə icazə verməyəcəyik" deyə, Azərbaycanla sərhədinə qoşun yığır, hərbi təlimlər keçirir. Təbii ki, 44 günlük müharibə ilə öz gücünü dünyaya nümayiş etdirən Azərbaycan İran dövlətinin bu addımlarından nəinki qorxur, əksinə, İranın Azərbaycana qarşı hər açıqlamasına, addımına adekvat cavab verir. Hər tərəfdən sanksiya məngənəsində sıxılan İran isə qonşu dövlətlərlə münasibətləri pisləşdirməkdən çəkinmir.

E. Şahinoğlu deyir ki, İranın Azərbaycana qarşı son zamanlar tutduğu mövqe qəti şəkildə qəbuledilməzdir. Bu günlərdə İran İslam Respublikasının ali dini rəhbəri ayətullah Seyid Əli Xamneyinin Azərbaycandakı nümayəndəsi Ocaq Necatinin ofisi kimi fəaliyyət göstərən Hüseyniyyə məscidinin bağlanması İran tərəfindən siyasiləşdirilsə də, pandemiya şəraitində Hüseyniyyənin bağlanması tamamilə məqsəduyğundur. Qarabağda ermənilər məscidlərimizi təhqir edərkən səsini belə çıxartmayan İran nədənsə sözün hər iki mənasında virus ocağına çevrilən Hüseyniyyə məscidinin bağlanmasını qəbul edə bilmir.

Azərbaycan isə müstəqil dövlət olaraq yürütdüyü siyasətdə ictimai və dövlət maraqlarını hər şeydən üstün tutur.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Qoşulmama Hərəkatının yüksək səviyyəli görüşündə Azərbaycan sənəd yayıb

***Qoşulmama Hərəkatının (QH) 60 illik yubileyi ilə əlaqədar Serbiyanın paytaxtı Belqradda keçirilən yüksək səviyyəli görüşlə bağlı Hərəkatın sədri qismində Azərbaycan tərəfindən xülasə sənədi yayılıb.***

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Unikal"a verilən məlumata görə, sənəddə iştirakçı üzv və müşahidəçi ölkələlərin, təşkilatların, habelə qonaq ölkə və təşkilatların Azərbaycan və Serbiya tərəfindən birgə təşkil olunan görüşün əhəmiyyətini yüksək qiymətləndirdikləri qeyd olunur.

Burada 1961-ci il Belqrad Konfransının tarixi əhəmiyyətinə diqqət yetirilərək, Qoşulmama Hərəkatının Bandunq Prinsiplərinə uyğun olaraq bütün dövlətlərin sülh şəraitində birgə yaşayışı və dayanıqlı inkişafın təşviq olunması məqsədi və Hərəkatın əsasını qoyan şəxslərin uzaqgörən müdrikliyi və qətiyyəti nəticəsində dünyanın ikinci böyük siyasi platformasının yaradılması təqdir edilir.

Beynəlxalq sülh və təhlükəsizliyə olan yeni hədə və təhdidlərə rəğmən hazırda Qoşulmama Hərəkatının artmaqda olan effektivliyi, möhkəmlənən birliyi və müasir çağırışlara uyğunlaşdığı məmnunluqla ifadə edilir.

Tədbir iştirakçılarının beynəlxalq vəziyyəti, o cümlədən beynəlxalq hüquqa hörmətsizliklə müşayiət olunan artmaqda olan siyasi gərginlik, ayrıseçkilik, irqçilik və ksenofobiyanın artımının davam etməsi, COVID-19 pandemiyası və onun dünya dövlətlərinin sosial-iqtisadi vəziyyətinə təsiri və s. təhlil edərək qlobal səylərin çoxtərəflilik, beynəlxalq əməkdaşlıq və həmrəylik ruhunda səfərbər edilməsinin əhəmiyyətini vurğuladıqları sənəddə öz əksini tapır.

Burada, həmçinin tədbir iştirakçılarının QH-nin hazırkı sədri qismində Azərbaycan Respublikası Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüslərin, o cümlədən COVİD-19 pandemiyası ilə mübarizə sahəsində, eləcə də pandemiya sonrası bərpa ilə əlaqədar təşəbbüslərini yüksək qiymətləndirdikləri vurğulanır.

İştirakçı ölkələrin QH-nin Azərbaycan sədrliyinin, qlobal ehtiyacların qarşılanmasında təsirli töhfəni təmin etmək üçün Hərəkatın beynəlxalq müstəvidəki rolunun və fəaliyyətinin artırılmasına yönəlmiş səylərini dəstəklədikləri sənəddə qeyd olunur:

"Onu da bildirmək istərdik ki, yüksək səviyyəli tədbir çərçivəsində baş verən əsas hadisələrdən biri də Azərbaycan sədrliyinin təşəbbüsü ilə bir müddət öncə yaradılmış QH Gənclər Şəbəkəsinin pandemiya sonrası bərpa dövrü ilə əlaqədar Hərəkatın üzv ölkələrinin rəhbərlərinə öz tövsiyələrini təqdim etmələri oldu. Vurğulamaq istərdik ki, Azərbaycan sədrliyinin təşəbbüsü ilə QH-nin Gənclər Şəbəkəsinin yaradılması yüksək səviyyəli tədbirin bir çox iştirakçıları tərəfindən edilən çıxışlarda alqışlanıb".

## Milli Qəhrəmanın atası oğlunun şəhid olduğu yeri öpdü

***Milli Qəhrəman Şükür Həmidovun atası Nəriman Həmidovun arzusu həyata keçib.***

"Unikal"xəbər verir ki, ona oğlunun şəhid olduğu yeri öpmək nəsib olub. Həmin kadrları "Təsir dairəsi" verilişi Qubadlıda lentə alıb.

Arzusuna çatan ata göz yaşlarına hakim ola bilməyib.

Qeyd edək ki, Ş. Həmidov 1975-ci ildə Qubadlı rayonunda anadan olub. 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olmuş və Lələtəpə yüksəkliyinin azad edilməsində şücaət göstərib. Azərbaycan Prezidentinin Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Ona eyni zamanda müdafiə nazirinin əmri ilə vaxtından əvvəl polkovnik hərbi rütbəsi təqdim olunub. Vətən müharibəsində iştirakına görə, "Vətən uğrunda" medalı və "Zəfər" ordeni ilə də təltif olunub. Ş. Həmidov doğma yurdu Qubadlı uğrunda gedən döyüşlərdə şəhid olub. Milli Qəhrəman II Fəxri xiyabanda dəfn olunub. Ailəli idi, iki övladı yadigar qalıb.

## Xocavənddə tank mərmisi aşkarlandı

***Xocavənddə xeyli sayda tank mərmisi aşkar edilib.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdə döyüş sursatlarının aşkar olunaraq təhvil verilməsi istiqamətində mütəmadi profilaktiki tədbirlər aparılır.

Xocavənd RPŞ-nin əməkdaşlarınının rayonun Məmmədərə kəndi ərazisində keçirdikləri tədbir zamanı erməni hərbi qüvvələrinə məxsus döyüş sursatı aşkar edilib.

Aşkar edilən 71 ədəd qəlpəli tank mərmisi və onlara aid 64 ədəd partladıcı aidiyyəti üzrə təhvil verilib.

## Toylara görə daha 9 nəfər cərimələndi

***Oktyabrın 13-də Daxili İşlər Nazirliyinin (DİN), Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 50 toy şənliyinin monitorinqini həyata keçirib.***

DİN-in mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, monitorinq 43 şadlıq sarayında, 7 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə, 9 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub, 1 nəfər barədə materiallar baxılması üçün məhkəməyə göndərilib, 147 nəfər COVID-114 pasportu olmadığına görə şənliyə buraxılmayıb.

# Aprel döyüşlərinin şəhidi - Milli Qəhrəmanın doğum günüdür

***14 oktyabr tarixi 2016-cı ilin aprel döyüşlərində şəhid olmuş Milli Qəhrəman Samid İmanovun doğum günüdür.***

Mayor Samid İmanov 14 oktyabr 1981-ci il tarixində Neftcala rayonunun Sovetabad qəsəbəsində dünyaya göz acıb. 1998-ci ildə Neftcala rayonunda 1 saylı orta məktəbi bitirib və həmin il Ali Hərbi Məktəbə daxil olub. 2003-cü ildə Ali Hərbi Məktəbi fərqlənmə ilə başa vurub.

Türkiyə Cumruhiyyətində "Daxili təhlükəsizlik əməliyyatlarının planlaşdırılması və icrası" komando təlimi və "Paraşütdən sərbəst atlayış" kurslarında, habelə "Anadolu-2007? , "Anadolu Qartalı -2007 birgə taktiki təlimlərində", Pakistanda "Ləpirçi" və "Antiterror" kurslarında, İsveçrə krallığında "Dağ təlimi "kursunda, Rumuniya Respublikasında "Dağa dırmanma üzrə təlimatcı" kursunda iştirak edib.

2004-cü ilin iyun ayından xüsusi təyinatlı hərbi hissədə qrup komandirinin muavini, qrup komandiri, bölük komandiri, dəstə komandiri və hərbi hissənin qərargah rəisi-hərbi hissə komandirinin müavini vəzifələrində xidmət edib.

Xidməti müddətində 6 medalla təltif olunan az sayda hərbçilərdən biri olub.

Məlumata görə, o, bir müddət müdafiə naziri Zakir Həsənovun mühafizə xidmətinin rəisi olub, daha sonra öz istəyilə yenidən xüsusi təyinatlı hərbi hissəyə qayıdıb, hərbi hissənin Qərargah rəisi və xüsusi təyinatlı qoşunun komandanının köməkçisi vəzifəsini icra edib.



Samid İmanov göstərdiyi qəhrəmanlıqlara görə iki dəfə ölkə rəhbərliyi tərəfindən qəbul edilərək, mükafatlandırılıb.

Mayor Samid İmanovun başçılıq etdiyi dəstələr onun yüksək komandirlik bacarığının sayəsində düşmənə ağır zərbələr vurub, dəfələrlə düşmənin arxasına kecib, komandanlığa cox vacib materiallar gətirib.

O, Silahlı Qüvvələrin ən bacaraqlı zabitlərindən biri olub.

2014-ci il avqust ayında erməni təxribatının qarşısın almaq üçün Samidin dəstəsi əməliyyat kecirib, 20-yə yaxın ermənini məhv edərək, geriyə qayıdıb.

2016-ci ilin aprelin 3-dən 4-nə keçən gecə zabitimizin son döyüşü olub.

Tərtərin Talış kəndi ətrafındakı atışmada yaralanan cəsur komandir əsgərlərinin onu döyüş meydanından cıxarılmasına etiraz edib, yaralı əsgərinin (gizir) xilas edilməsi əmrini verib. Əsgərlərinin etirazına baxmayaraq, əmrin icra edilməsi üçün qəti göstəriş verib.

Ərazidən uzaqlaşan qrup qısa zamanda təhlükəli olmasına baxmayaraq, yenidən qayıdıb, amma komandiri yerində tapa bilməyiblər.

Samid İmanov əsgərləri ərazidən uzaqlaşandan sonra ələ keçməmək üçün ordan aralanıb, lakin aldığı yaralardan qanaxma nəticəsində dünyasını dəyişib.

Prezident İlham Əliyevin sərəncamı ilə erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdiyi qəhrəmanlığa görə, şəhid mayor Samid Gülağa oğlu İmanov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Allah rəhmət eləsin.

# Əbədiyyət nağməli şəhid ömrü

***Masallı rayonunun Xoşçobanlı kəndində boya başa çatan Musa Əlövsət oğlu Mustafayev Vətən müharibəsində qəhrəmanlıq göstərər dünyanın müqəddəsliyini özündə yaşadan şəhidlik zirvəsinə ucalananda ömrünün 19 ilini yola salırdı. Amma o, bu az yaşında yaratmağı, yaşatmağı özünə ali məqsəd seçməklə elinin, yurdunun məhəbbətini qazana bilmişdi. Elə Masallı elinin mərd oğlunu şəhidlik zirvəsinə aparan Vətəninə, xalqına ilahi bir sevgi oldu.***

Həyatı dərk edən gündən ürəyini Vətənə bağlayan, onu müqəddəsliyinə tapınıb gələcəyə yol alan Musa orta təhsildən sonra Cəlilabad rayonu, Göytəpə qəsəbəsində yerləşən texniki liseydə geniş profilli traktorçu-maşinist, çilingər-sürücü ixtisasına yiyələnir. Gözəl daxili hisslərə malik, nəcib arzulu yeniyetməni canına yağı dadanmış yurdunun taleyi çox narahat edir. 2019-cu ildə ordu sıralarına yola düşəndə birinci amalı düşmən tapdağında qalan torpaqların azad edilməsi olur. Bir müddət Cəlilabad şəhərində "N" saylı hərbi hissəsinin sərhəd zastavasında Vətənin keşiyində durur. Hər qarışını canında əziz tutmaqla layiqli bir övlad olur ona. Bununla bərabər, Qarabağ zəbt etmiş erməni faşistlərin başını əzməyi də unutmur. Qəlbində erməni quldurlardan intiqam, qisas almaq alovu get-gedə alovlanır. Odur ki, İkinci Qarabağ müharibəsi başlanan gündən döyüşə atılır. Qanındakı iliyindəki cəsurluq, rəşadət coşur. İgid əsgər Füzulini erməni işğalçılardan təmizləməkdə əsl hünər göstərir. Hər qələbədən sonra Musa bir daha Vətəninə ürəkdən bağlanır, doğma torpaqlarını azadlığı uğrunda müharibə bitənə qədər vuruşmağa and içir. Döyüşdə-döyüşə atıldıqca düşmənin neçə-neçə texnikasını, canlı qüvvəsini məhv edir. Oktyabrın 6-da polad sinəsi düşmən gülləsinə tuş gələndə son sözü "Təki Vətən yaşasın",- olur. Vətənə, torpağa bağlılığından, yurd sevgisində doğan 19 yaşlı bir igidin bu şərəfli ölümü əsl qəhrəmanlıq məktəbi tək tarixə yazılır.



İndi Masallı camaatı igid oğlunu sevilən ömür kimi xatırlayır. Onun adı çəkiləndə sanki yaşatmaq naminə həyata əzəmət, vüqar, sevgi gəlir. Dövlət tərəfindən ölümündən sonra layiq görüldüyü "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları da öz yerində...

İkinci Qarabağ savaşında Vətən torpaqlarını canından əziz bilən, onun azadlığı uğrunda şəhid olan qəhrəman oğullardan biri Sənan Nizami oğlu Ağazadədir. Həyatının mənasını xalqının, doğma yurdunun xoşbəxtliyində görən Sənan 2000-ci ildə Lənkəran rayonunun Göyşaban kəndində dünyaya göz açmışdı. Qəlbi düşmən tapdağında qalan torpaqların azad edilməsi istəyi ilə döyünən bu Vətən sevdalısının həqiqi hərbi xidməti qaynar bölgələrin birin də keçir. 1 il 3 ay xidmət etdikdən sonra İkinci Qarabağ müharibəsi başlanır. Sənan Füzuli istiqamətində gedən döyüşlərə qoşulur. Erməni dığalarına qarşı qəhrəmanlıqla vuruşur, onun döyüş texnikasını, çoxlu sayda canlı qüvvəsini məhv edir. 2020-ci il oktyabr ayının 14-də düşmən gülləsinə tuş gələn igid əsgərin Vətən eşqi ilə döyünən ürəyi dayanır.

Sənan Ağazadənin şücaətinə dövlətimiz tərəfindən yüksək qiymət verilib. O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olmasına görə" medallarına layiq görülüb

Bu günlər Vətən Müharibəsinin birinci ildönümü ilə əlaqədar Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov və Mədəniyyət işçilərin Həmkarlar İttifaqının Lənkəran rayon Komitəsinin sədri Anar Salayev şəhid Sənan Ağazadənin qəbrini ziyarət etdikdən sonra şəhidin ailəsi ilə həmsöhbət olub şərəfli döyüş yolundan, Vətəninə, xalqına məhəbbətindən qürurla danışdılar. Axırda ailənin vəziyyəti ilə maraqlanıb bir sıra problemlərini yoluna qoymaqda onlara dəstək oldular.

***Zəfər ORUCOĞLU, AJB üzvü***

# AQTA sədri hesabat verdi

## 2 milyonluq cərimə, xəstəxanalardakı pozuntularla bağlı hüquq mühafizə orqanlarına məlumat verilib

***Cari ilin 9 ay ərzində Qida Təhlükəsizliyi Agentliyi tərəfindən ümumilikdə 2001 yoxlama aparılıb. Yoxlamalardan 1396-sı planlı, 605-i plandankənar yoxlamalardır. Həyata keçirilən nəzarət tədbirləri çərçivəsində 4400 iş üzrə inzibati tənbehvermə haqqında qərar qəbul edilib.***

"Unikal" xəbər verir ki, bunu Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli 2021-ci ilin 9 ayı ərzində agentliyin fəaliyyətinə dair mətbuat konfransında çıxışı zamanı deyib. Onun sözlərinə görə, inzibati tənbehvermə haqqında qərarlar əsasında 2 110 900 AZN məbləğində cərimə tətbiq edilib:

"213 müəssisədə "Məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə" qərar qəbul olunub. Məhdudlaşdırıcı qərarlardan 88-i ticarət obyektləri, 38-i ictimai iaşə müəssisəsi, 87-si istehsal müəssisələri və digər fəaliyyət sahələri barəsində olub".

Agentlik sədri bildirib ki, 2021-ci ilin 9 ayı ərzində Agentlik tərəfindən 50 147 ədəd qida təhlükəsizliyi sertifikatı,



39 243 ədəd fitosanitar sertifikat və icazə sənədi, 10800 ədəd baytarlıq sertifikatı və icazə sənədi verilib:

"Qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti tədbirləri nəticəsində məhv edilmiş məhsulların siyahısına 206 ton ət və ət məhsulları, 28 ton balıq məhsulları, 665 ton və 13,748 dkl süd və süd məhsulları, 5,018 ədəd yumurta, 615 dkl alkoqollu və 18,045 dkl alkoqolsuz içkilər, 123 ton və 36 dkl tamlı məhsullar qrupuna aid digər məhsullar, 240 ton şəkər, bal və şəkərli qənnadı məmulatları, 32 ton un və un məmulatları, 60 ton və 37 dkl mayonez və yağ məhsulları, 22 ton dənli-paxlalı bitkilərdən məhsullar, 317 ton meyvə və tərəvəz məhsulları, 6 ton, 2 dkl və 74,961 ədəd qida əlavələri, 8 ton kulinariya məmulatları, 20 baş iribuynuzlu və xırdabuynuzlu heyvan, 3 ton və 41 dkl baytarlıq preparatları, 949 kq taxıl, 106 ton meyvə və tərəvəz, 109 ədəd üzüm tingi daxildir.

Bununla yanaşı, 58 tibb müəssisəsində xəstələrin qidalanma rejiminin təmin olunması, həmçinin qida normalarının normativ sənədlərin tələblərinə uyğun tətbiq edilməsi ilə bağlı yoxlamalar həyata keçirilib, 8 tibb müəssisəsində aşkar edilmiş pozuntularla bağlı materiallar Baş Prokurorluğa göndərilib. Həmçinin 28 tibb müəssisəsinin məsul şəxsləri yol verdikləri pozuntularla bağlı inzibati məsuliyyətə cəlb edilib".

# Məktəblərdə kişi, yoxsa qadın müəllimlər çox olmalıdır? - Fikirlər HAÇALANIR

***Bu gün Azərbaycanda kişi müəllimləri ilə qadın müəllimləri arasında xeyli say fərqi var. Ölkədə qadın müəllimlər ümumi müəllimlərin 81 faizini təşkil edir. Amma kişi və qadın müəllimlər arasında bu qədər böyük say nisbətinin olması cəmiyyətdə birmənalı qarşılanmır. Əksəriyyət qadın müəllimlərin tərbiyəsinin üstünlük təşkil etməsinin oğlan uşaqlarının psixologiyasına mənfi təsir etdiyini düşünür. Valideynlər orta məktəblərdə kişi müəllimlərin sayının artmasının tərəfdarıdırlar. Bəzi valideynlər, xüsusilə də qız anaları əksinə, məktəblərdə kişi müəllimlərinə ümumiyyətlə yer verilməməlidir deyə düşünür.***



Təhsil eksperti Kamran Əsədov bu barədə Modern.az-a açıqlamasında bildirib ki, Azərbaycanda 4 min 447 orta ümumtəhsil məktəbində 150 min müəllim çalışır. Təhsil eksperti müəllimlərin 81 faizini qadınların, 19 faizini kişilərin təşkil etdiyini vurğulayıb: "Bunun da müxtəlif səbəbləri var. 90-cı illərdə, xüsusən də müstəqilliyimizin ilk illərində müəllimlərin əmək haqlarının azlığı, I Qarabağ müharibəsinin kişi müəllimlərin sayına ciddi şəkildə mənfi təsir etməsi səbəblər sırasındadır. Bu gün ali məktəblərin pedaqoji ixtisaslarına qəbuluna da nəzər yetirdikdə yenə də qadınların 80 faizlə üstünlük təşkil etdiyini görürük. Lakin qeyd edim ki, son illərdə kişilər arasında bu peşəyə meyllilik müəyyən qədər artıb".

Psixoloq Aytən Ələkbərova isə Kamran Əsədovun fikirləri ilə razılaşmır. Psixoloq kişi müəllimlərin hələ 1970-80-ci illərdə də az olduğunu söyləyib: "Əslində illər öncə də orta məktəblərdə kişi müəllimlərin sayı az idi. Yəni bu tendensiya son vaxtlar artan durum deyil. Orta məktəblərdə dərs deyən kişi müəllimlər də adətən məktəbin idarəçiliyində təmsil olunurdular. Müəllim kollektivi 90 faiz qadınlardan ibarət idi. Həmin dövrlərdə orta məktəbi bitirən, bu gün artıq müstəqil həyata atılmış, cəmiyyətdə özünə yer tutmuş şəxslərin heç də hamısında qadın müəllimlərin tərbiyəsi özünü göstərmir. İndi gənclərin durumu ilə bağlı səsləndirilən fikirlər 1970-80-ci illərdə o qədər də şişirdilmiş vəziyyətdə dilə gətirilmirdi. İndinin gənclərin təsvir və təqdim olunması sanki bir təlatümdü. Onların dərsə marağının azalması, gənclərin nə istədiyinin bilinməməsi heç də qadın müəllimlərin tərbiyəsindən irəli gəlmir. Qadın müəllimlərin ailələrinə də, işinə də diqqəti çoxşaxəli olduğuna görə onlar şagirdlərə məhəbbətini göstərə bilirlər. Bir qadının təhsilə verdiyi fayda bir ağacın insanlara faydasına bənzəyir. Ağac həm meyvə, həm sərinlik, həm gözəllik, həm oksigen bəxş etdiyi ki, qadın müəllimlər də uşaqların təhsilinə belə faydalı xidmət edirlər".

Psixoloq bir daha vurğulayıb ki, orta məktəblərdə kişi müəllimlərin az olması şagirdlərin tərbiyəsinə mənfi təsir etmir: "Əksinə qadınlarımız daha səbirli olurlar, uşaqlarla, yeniyetmələrlə davranışlarda səbr göstərə bilirlər.

Orta məktəblərdə kişi müəllimlərin sayını artırıb, qadınların sayını azaltsaq, cəmiyyətə sağlam psixologiyada övladların yetişdiriləcəyinə inanmıram. Yaxşı olar ki, bizim ibtidai sinif müəllimləri elə qadın müəllimlər olsun. Böyük bir şagird kollektivini ən yaxşı elə xanımlar idarə edər. Ali məktəblərdə isə kişi müəllimlərin sayının çox olması daha müsbət təsir edər"(modern.az).

***Aysel Aslan***



# Azərbaycana idxal edilən kartofa yeni tələblər müəyyən edilib

***Azərbaycana idxal edilən toxumluq və ərzaqlıq kartof məhsuluna yeni tələblər müəyyən edilib.***

"Unikal" xəbər verir ki, bunu Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli 2021-ci ilin 9 ayı ərzində agentliyin fəaliyyətinə dair mətbuat konfransında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, yeni tələblər Azərbaycana məhsul ixrac edən ölkələrə təqdim olunub: "Payız mövsümündən etibarən, kənd təsərrüfatı məhsullarının ixrac olunduğu əsas idxal tələbləri nəzərə alınaraq, ümumilikdə pomidor 25, kartof 25, soğan 20, şaftalı və nektarin 19, alma, armud, ərik, albalı, gavalı 18, nar və zoğal 12, xurma 10 zərərli orqanizmə görə müəyyən ediləcək ki, bu da fitosanitar sertifikatlaşma müddətinin artmasına səbəb ola bilər".

# "Qida əlavələrini həkimlər resepta yazır" - Agentlik sədri

***"2021-ci ilin ilk 9 ayı ərzində Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) bioloji fəallığa malik qida əlavələrinin ölkəyə idxalı ilə bağlı 2130 müraciət edilib. Onlardan 1731-i qida təhlükəsizliyi sertifikatı ilə təmin edilib".***

"Unikal" xəbər verir ki, bunu Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli 2021-ci ilin 9 ayı ərzində agentliyin fəaliyyətinə dair mətbuat konfransında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, tərkibində ağır metallar aşkar edilən 2 müraciət üzrə məhsulların məhv edilməsi haqqında qərar verilib: "Müraciətlər üzrə məhsulların tərkibində ağır metal aşkar edildiyindən və orqanoleptik göstəriciləri uyğunsuz olduğundan geri qaytarılıb".

Q.Təhməzli bildirib ki, BFMQƏ-lər ilə bağlı müxtəlif uyğunsuzluqlar aşkarlanıb: "Etiket məlumatlarında BFMQƏ-nin xəstəliklərin müalicəsi və profilaktikası zamanı istifadə edilməsi, habelə bu cür təəssürat yaradan və istehlakçıların çaşdırılmasına səbəb olan ifadə və məlumatların göstərilməsi, qablaşdırma və istifadə təlimatlarının mövcud qanunvericiliyin tələblərinə uyğun tərtib edilməməsi, qida təhlükəsizliyi sertifikatı olmadan qanunsuz olaraq satışının həyata keçirilməsi, uşaqlar üçün nəzərdə tutulmayan BFMQƏ-nin qablaşdırmasında uşaqlar üçün nəzərdə tutulduğunu göstərən ifadə, şəkil və rəsmlərin yerləşdirilməsi, qadağan olunduğu halda BFMQƏ-lərin həkim reseptinə yazılması və apteklərdə dərman vasitəsi kimi satılması halları aşkarlanır".

# "Tonoyan işi" böyüyür

## Eks-nazir Paşinyanı beynəlxalq sirləri açmaqla hədələyir

***Bir müddət öncə saxlanılan Ermənistanın keçmiş müdafiə naziri David Tonoyan ona qarşı irəli sürülən ittihamları qəbul etmədi. Sonradan erməni KİV-lərində İkinci Qarabağ müharibəsi zamanı nazir işləmiş Tonoyanın keçmiş komandasını-ölkə rəhbərliyini çətin duruma salacağı, bəzi sirləri aça biləcəyi barədə məlumatlar dolaşdı.***

Bu gün isə yerli saytlardan birində qalmaqallı "Tonoyan işi" ilə bağlı maraqlı bir məqalə dərc edilib. Azvision.az xəbər verir ki, müəllif artıq eks-nazirin cəmiyyətə beynəlxalq qalmaqala səbəb ola biləcək informasiyaları ötürə biləcəyini iddia edib.

- Müharibədəki məğlubiyyətin, milli rüsvayçılığın memarı David Tonoyan ağasını(Nikol Paşinyan-red.) hələlik yumulu saxladığı ağzını açaraq bəzi məsələləri danışmaqla hədələyir. Yəni əgər o danışmağa başlasa, nəticədə dövlətlərarası bir qalmaqal başlayacaq. Deyə bilərəm ki, Tonoyan öz işini asanlaşdırmaq üçün belə bir mesaj göndərir. Amma fakt budur ki, keçmiş nazir "danışa bilməz".

Tonoyan "ağzını tikdi": İstintaqçılar çıxılmaz vəziyyətə düşübMəsələ isə belədir. O, nazir olarkən 2020-ci ilin avqustunda Rusiyada keçirilən "Ordu-2020" beynəlxalq hərbi tədbirinə qatılmışdı. Tədbir zamanı Rusiyanın müdafiə naziri Sergey Şoyqu Tonoyana müharibə hazırlıqları barədə məlumatlara malik olmasını çatdırıb. Rusiyalı nazir müharibə baş verəcəyi təqdirdə ölkəsinin döyüşlərə birbaşa müdaxiləsinin olmayacağını söyləyərək Tonoyana məsələni kapitulyantla müzakirə etməyi və birgə dolayı yollar tapmağı təklif edib. David ölkəyə dönərək Şoyqunun onun patronuna(Nikol Paşinyan-red.) göndərdiyi mesajı çatdırır. Kapitulyant isə "ruslar blef edir və müharibə ola bilməz, ruslar Türkiyənin bölgədə mövcudluğuna da imkan verməz" deyir.

Beləcə Tonoyan ortada söz çatdıran rolunu oynayaraq Şoyquya kapitulyatorun dediklərini söyləyir. Nəticədə bizə xalq olaraq 27 sentyabr 2020 və 9 noyabr 2020-i yaşatdılar.

İndi əldə etdiyimiz məlumata görə hələlik susan David kapitulyantı hədələyərək bəzi bu kimi beynəlxalq məsələləri danışacağı ilə hədələyir. Eks-nazir hazırda belə təhlükəli məsələlərlə "siyasi bazarlığa" getməyə çalışır. Məncə "baş komandirə" deyin ki, danışsın. İndi çıxıb danışsın. Yoxsa tezliklə xəyanət maddəsi ilə keçmiş patronunu da yanına alıb eyni kamerada oturacaq.

Yeri gəlmişkən, gəlin Tonoyanın vəkillərindən xahiş edək ki, onlar Davidə İordaniyadan 10 qat baha alınan "silahlar" haqqında da xatırlatma etsinlər və o bu silahların nələrdən ibarət olduğunu söyləsin-,məqalə müəllifi yazıb.

Xatırladaq ki, bir müddət öncə Milli Təhlükəsizlik Xidmətinin başlatdığı vəzifə səlahiyyətlərindən sui -istifadə və külli miqdarda mənimsəmə ilə bağlı cinayət işində hələlik 3 şəxsin adı hallanır. Keçmiş müdafiə naziri David Tonoyan, "Davo" ləqəbli Müdafiə Nazirliyinin silah tədarükçüsü olmuş David Qalstyan və Baş qərargah rəisinin müavini Stepan Qalstyana ağır iş kəsiləcəyi gözlənilir. Amma eks-nazir istintaqçılara izahat verməkdən imtina etdiyi üçün iş uzanır. Ehtimal edilir ki, məhkəmə qarşısına yeni hərbçi və məmurlar da çıxsın.

***Tural Tağıyev***

# "Balıqqulağı" əməliyyatı: İran İsraildən gizli yolla necə silah alırdı



***İranın siyasi isteblişmentini təmsil edən rəsmi şəxslərinin Azərbaycan liderinin sərt və əsaslı fikirlərinə toxunub çiliklənən əsassız və yersiz çıxışları davam edir. Onların əsas kütləsi hiss olunmadan fəzada əriyib yox olsa da, müəyyən mesajlar qalır və ölkəmizin bundan sonrakı xarici siyasətinin formalaşması üçün farvater rolunu oynayacaq.***

Azərbaycanı "Twitter"də aşkar nifrətlə suçlayan, İsraili regiona gətirməkdə ittiham edən İranın ali lideri ayətulla Seyid Əli Hüseyni Xameneyi İran təbliğatının fundamental əsaslarını ikicə saniyədə sarsıdacaq və İran-İsrail hərbi-iqtisadi əlaqələrinə işıq salacaq faktlar barədə susur.

1979-cu ilin oktyabrında ayətulla Ruhulla Musəvi Xomeyni bütün islam ölkələrini İsrailə müqəddəs müharibə elan etməyə və onunla bütün əlaqələri kəsməyə çağırmışdı. O zaman İran İslam Respublikası konstitusiyasının onuncu bəndində bu ölkənin xarici siyasətinin qısa düsturu peyda oldu. Orada "dünya müsəlmanlarına münasibətdə qardaş öhdəlikləri", "islam dünyasında əziyyət çəkənlərin sözsüz müdafiəsi" və dünyada yəhudi dövlətinə yer olmaması haqda yazılmışdı.

Lakin İranın öz varlığını sürdürməsi üçün multistandart fars diplomatiyası ilə istənilən dolayı əlaqələri və kollaborasiyanı dəqiq hesablayan yəhudi lobbisinin qarşılıqlı münasibətlərinə ehtiyacı vardı. 1980-ci ildə başlayan İran-İraq münaqişəsi ilə İranın öz keçmiş müttəfiqi və indiki "rəsmi düşməni" ilə münasibətləri başqa müstəviyə keçdi. Bunda Tehrana silah embarqosu tətbiq edən ABŞ-ın mühüm rolu oldu.

Baş naziri Menahem Beginin vaxtında İsrail ixrac etdiyi silahın, döyüş sursatının, hətta hərbi texnika və aviasiya vasitələrinin yarıya yaxınını İrana göndərməyə başladı. O zaman İranın Silahlı Qüvvələrinin arsenalı əsasən xaricdən təmin olunurdu.

Silah və hərbi texnika üçün detalların idxalı İsrailin vasitəçiliyi ilə üçüncü ölkələrin ərazisindən, müvəqqəti maliyyə qurumlarının və saxta şirkətlərin köməyilə ciddi gizlilik rejimində reallaşdırılırdı. Nəqliyyat kimi isə mülki aviasiyadan və icarə olunmuş, yad bayraqlar altında üzən gəmilərdən istifadə olunurdu.

"Silah baronu" Əhməd Heydərinin sözlərinə görə, Afinada yerləşən mənzil-qərargahdakı, Kipr Respublikasının Larnaki hava limanındakı logistik mərkəzdəki silahın 80%-ni Tehran müharibə başlayandan dərhal sonra birbaşa İsraildən alırdı.

"Seashell" (Balıqqulağı) gizli əməliyyatı çərçivəsində İrana tədarük olunan silah birbaşa "Israel Military Industries", "Israel Aircraft Industries" və İsrailin Müdafiə Ordusu anbarlarından gəlirdi. İran məhz onların sayəsində İraq ilə müharibəyə başlayanda bərbad durumda olan aviasiyasının təmirini və təchizatını qısa müddət ərzində yoluna qoya bildi.

İlk vaxtlar aviadaşıyıcı rolunda Argentinanın "Transporte Aereo Rioplatense" təyyarəsi çıxış edirdi, lakin 1981-ci ildə Ermənistan SSR ərazisində uçan "Canadair CL-44"ün bortunda baş verən insident və qəzadan sonra İrana silah tədarükü ancaq dəniz yoluyla reallaşdırılmağa başladı...

İsrail ilə bütün əməkdaşlıq dövründə İran ondan 150 ədəd M40 geri təpməyən top və külli miqdarda 106 mm-lik mərmi, ehtiyat hissələri və zirehli texnika, aviasiya detalları, 130/175/203 mm-lik haubitsa və top mərmiləri, yaxın mənzilli "MGM-52 Lance" ballistik raketləri, özügedən və yedəkdə aparılan lüləli artilleriya sistemləri üçün M712 Copperhead yarım-aktiv lazer tuşlamalı 155 mm-lik yüksək dəqiqliyə malik, kumulyativ-fuqas idarə olunan mərmilər, 18 ədəd MIM-23 zenit-raket kompleksi üçün 300 ədəd orta mənzilli "yer-hava" HAWK raketləri, 45000 ədəd Uzi tapança-pulemyot və s. alıb.

Ancaq ən önəmli silahlar TOW TƏİR-ləri (tank əleyhinə idarə olunan raket - red.) qurğusu və onlara aid 2500 ədəd idarə olunan raket idi. Onlar ordu döyüş maşınlarına və "AN-1 Cobra"lara montaj edikdən sonra İraq zirehli texnikasının və vertolyotlarının qorxulu yuxusuna çevrildilər.

İsrailin "Jaffe Institute for Strategic Studies" qurumunun verdiyi məlumata görə, 1981-1983-cü illərdə gizli silah sövdələşməsinin məbləği illik 500 milyon dollara çatırdı. Bu mövzunu son dərəcə dəqiq araşdıran Amerika mediasının yaydığı informasiyalarda deyilir ki, İsrail ilə qeyri-rəsmi əməkdaşlıq sayəsində İran il ərzində bir milyard dollarlıq silah, sursat, döyüş texnikası və mərmi alıb ki, indiki qiymətlərlə bu, ən azı dörd dəfə böyük məbləğ edir.

Bu barədə ABŞ hökümətinin rəsmi hesabatı da var ki, İran ilə İsrail arasındakı gizli əməkdaşlığın illik həcmi 2 milyard dollar həcmində dəyərləndirir və bu yuxarıda göstərilən məbləğin müasir ekvivalentinin avtomatik olaraq iki qatı deməkdir.

Üstəlik İran ödənişlərin bir qismini neft qiymətlərinə uyğun olaraq güzəştli formada edib və bu da İsrailin Latın Amerikasından olan tədarükçülər qarşısında müstəqil olmasına şərait yaradıb.

Sadə şəkildə ifadə etsək, İran rəsmi olaraq düşmən elan etdiyi dövlət ilə sadəcə əməkdaşlıq etməyib, o, ərəb dünyasından olan və İsraili iqtisadi yollarla Fələstinə münasibətinə yenidən baxmağa məcbur etmək istəyən "müsəlman qardaşlarını" satıb.

Döyüşlərin ən qızğın çağında ayətulla Xomeyni qəflətən sirli bir şəkildə İsrailə qarşı "müqəddəs müharibə" haqqında tezisləri unutdu. 1985-ci ilin oktyabrında isə yəhudi dövlətinin əsas beynəlxalq təşkilatdan çıxarılması ilə bağlı BMT-yə verdiyi təklifini ümumiyyətlə geri götürdü. Bu zaman xalq kütləri ayətullanın ikibaşlı oyununu anlamasınlar deyə, İran KİV-ləri var gücləri ilə bağıraraq, başlıca silah tədarükçüsü olan İsraili "kiçik şeytan" adlandırmağa başladılar(azvision).

***Hans Kloss,***
***Nadir Qocabəyli***

# Ağasəlim Mircavadovun Zaur Ramazanova cavabı: "Danışığını bilmir"



***AFFA Məşqçilər Komitəsinin üzvü Ağasəlim Mircavadovun apasport.az saytına müsahibəsini təqdim edirik.***

***- Keçmiş futbolçunuz Zaur Ramazanov saytımıza açıqlamasında Məşqçilər Komitəsi ilə bağlı ittihamlar səsləndirib. Bu komitənin boş yerə yaradıldığını, heç bir işə yaramadığını söyləyib. Buna cavabınız nədir?***

- Zaur bizim nələr etdiyimizi bilmir. Məsələn, bu il Region Liqasında komandaların sayının artırılması planını vermişdik. Bizdə böyük plan var idi, rəhbərliyə təqdim etmişik. Biz sadəcə lazım olan məsələləri deyirik, işi assosiasiya görür. Birinci divizionda komandaların sayının artırılmasına çalışdıq, limitin dəyişdirilməsinə nail olduq. Yəni çox iş görülür.

***- Ramazanovun sözlərinə görə, aşağı yaş qrupu üzrə yığmaların səfər oyunlarına getsəniz də, yeniyetmə və gənclərin çempionat oyunlarında görünmürsüz. Aşağı yaş qrupu üzrə çempionat matçlarına gedirsiz?***

- Bunu Zaur hardan bilir? Bəyəm oyunlara gedib, bizim orada olub-olmadığımıza baxır? Aşağı yaş qrupu yığmalarının bütün matçlarına baxırıq, izahat yazırıq. Bizim səlahiyyətimiz yığmaların oyunlarını izləməkdir, buna da əməl edirik. Stadionlarda çox oluruq. Yeddi ay klubları gəzdik, akademiyalarda görülən işlərlə tanış olduq və rəhbərliyə böyük izahat yazıb verdik. Klub məşqçiləri ilə müntəzəm görüşürdük, inkişafın zəif getməsinin səbəblərini araşdırırdıq. Biz gördüyümüz işi reklam eləmirik.

***- Onun ünvanınıza digər tənqidi müəyyən məbləğdə maaş qarşılığında susmağınız və məşqçilərə işləmək imkanı verilməməsi ilə bağlı idi. Buna cavabınız nə olar?***

- Məşqçilərə biz mane oluruq? Əgər digərlərinə imkan vermiriksə, özümüz niyə işləmirik? Söhbət maliyyədən getmir. Sakit işini görən qurumu tənqid etməyə öyrəşmişik. Çünki onun fikrinin nə olduğunu, hansı işlər gördüyünü bilmirik. Ağzımıza gələni danışmağa nə var ki. Biz məşqçi təyin edən komitə deyilik. Yoxsa elə özümüz işləyərdik də. Bəs Zaura niyə sual vermədiniz ki, sən niyə işləmirsən?

***- Həmin sualı vermişik, cavabı da belə olub ki, AFFA, konkret olaraq icraçı vitse-prezident Elxan Məmmədov imkan vermir...***

- Bu başqa məsələ. Elxan müəllim nə etməlidir? Hansısa məsələyə münasibət öyrənmək lazım olanda Məşqçilər Komitəsinin üzvlərini axtarırsınız. Amma biriniz də yazmırsınız ki, bu komitədə olanlar niyə məşqçi işləmirlər? Niyə mən 10 ildir işləmirəm? Bunu yazın da. Çünki bunu yazmaq sizə sərf eləmir. Sizə qalmaqal, qırğın lazımdır.

***- Biz neytral, müstəqil qurumuq. Sadəcə, Zaur Ramazanov haqqınızda ittiham səsləndirdi, peşəkarlıq naminə sizin də cavabınızı işıqlandırmağı borc bildik...***

- Xeyr, neytral deyilsiniz.

***- Neytral olmasaydıq, sizə tribuna verməzdik...***

- Elxan Məmmədov bəyəm məşqçi hazırlayır və ya təyin edir? Zaur bizim hansı işləri gördüyümüzü bilsə, bunları danışmaz. Məşqçilər Komitəsini ona görə yaradıblar ki, işləmirik, kömək edək. Biz də həmişə köməyimizi edirik. Zaur Ramazanovun işləməməyinə gəlincə, UEFA-nın tələbinə görə, işləmək üçün oxumalı, lisenziya almalısan. Əgər lisenziya ala bilmirsənzə, nə işləyəcəksən? Zaur yaxşı oyunçu olub, yaxşı insandır. İstiqanlıdır, sadəcə özündən tez çıxır. Sakit halda qəbul etməlidir ki, işləmək üçün oxumalısan. İş qabiliyyəti olan insanlarla işləməyənləri bərabər tutursunuz. Mən yığmada işləyəndə 15 dollar alırdım. Gərək qışqırıb, etiraz edərdim? Sakit halda işimi görürdüm. Zaur Ramazanov ittiham eləmir, ağzına gələni danışır. İstiqanlıdır, hirslənəndə danışığını bilmir, özünü itirir. Mənim futbolçum olub, xasiyyətini bilirəm. Bu günlərdə onunla görüşmüşəm, Məşqçilər Komitəsinin nəyə qulluq etdiyini başa salmışam. Sakit işimizi görürük ki, futbolumuz inkişaf eləsin. Bunu mən də, siz də, Zaur da istəyir.

***Ruslan Sadıqov***

# "Messinin "Barselona"dan gedişi məni şoka saldı" - Aquero

***"Barselona"nın yeni transferi Serxio Aquero Kataloniya klubuna keçidindən və Lionel Messinin komandadan gedişindən danışıb.***

Argentinalı hücumçu həmyerlisi və yaxın dostu Messi ilə birgə oynamaq üçün "Barselona"ya keçdiyini və onun gedişindən şoka düşdüyünü bildirib:

"Barselona"ya keçdiyim üçün peşman deyiləm. Əksər futbolçular bu klubda, bu formada çıxış etmək istəyir. Ancaq onu da deyim ki, Lionel Messi ilə oynamaq ümidi ilə bura gəlmişdim. Onun gedişi məni şoka saldı. Çox pis anlar yaşadım. Baş verənlərə inana bilmədim. Olanları unutdurmaq üçün Leo ilə görüşüb danışdım. Vəziyyətini gördüm, o d yaxşı deyildi".

Qeyd edək ki, Aquero bu yay "Mançester Siti"dən ayrıldıqdan sonra azad agent statusu ilə "Barselona"ya keçib. Messi də bu yay Kataloniya klubundan ayrılaraq PSJ-yə keçib.



## "Real"ın Ramosla niyə müqavilə imzalamadığının səbəbi bilindi

***"Real"ın sabiq futbolçusu Serxio Ramosla müqaviləni niyə uzatmadığı məlum olub.***

Qol.az xəbər verir ki, ispan müdafiəçinin Madrid təmsilçisi ilə müqaviləsi iyunda başa çatıb. Klub onunla yeni sözləşmə imzalamayıb. 35 yaşlı oyunçu azad agent kimi PSJ-yə keçib.

RMC jurnalisti Fred Ermelin sözlərinə görə , "Real" rəhbərliyi sağlamlıq problemlərinə görə futbolçu ilə yeni müqavilə imzalamayıb.

Məlum olub ki, ispanın oyunçunun dizində böyük problemləri var və onun durumu daha da pisləşir.

Xatırladaq ki, Ramos zədə səbəbindən indiyə kimi Paris təmsilçisində debüt etməyib.

## "Mançester Yunayted"in kapitanı daha 4 oyun buraxa bilər

***"Mançester Yunayted"in əsas müdafiəçi Harri Maquayr daha bir neçə oyunu buraxa bilər.***

Qol.az "Sky Sports"a istinadən xəbər verir ki, komandanın kapitanı kəllə-beyin zədəsindən sağalmağa davam edir və hələ tam məşq etməyib. 28 yaşlı futbolçunun sıraya nə vaxt qayıdacağı məlum deyil. Onun "Mançester Yunayted"in qarşıdakı matçlarını buraxacağı gözlənilir.

"Qırmızı şeytanlar" oktyabrın 16-da İngiltərə Premyer Liqasında "Lester"lə, oktyabrın 20-də Çempionlar Liqasının qrup mərhələsinin üçüncü turunda "Atalanta" ilə və oktyabrın 24-də "Liverpul" la İngiltərə Premyer Liqasının digər oyununda qarşılaşacaq.

## "Kimsə mənə..." - Mahirdən paylaşım

***Millimizin hücumçusu Mahir Emreli "Legiya"da məşqlərə qatılıb.***

Bu barədə 24 yaşlı hücumçu özünün "Tvitter" hesabında yazıb.

Trenajor zalından məşq şəklini paylaşan Mahir bu sözləri yazıb: "Kimsə mənə istirahət gününün nə demək olduğunu izah edə bilər?"

Qeyde edək ki, ilk koronavirus testi müsbət çıxan M.Emreli DÇ-2022-nin seçmə mərhələsində Serbiya ilə oyunu buraxıb. Ancaq onun sonrakı iki testi mənfi çıxıb. Bu səbəbdən karantinə ehtiyac qalmayıb. Emreli Polşa çempionatının növbəti turunda keçiriləcək "Lex"lə görüşdə iştirak edə biləcək.

## "Bavariya"nın futbolçusuna 6 aylıq həbs cəzası

***İspaniya məhkəməsi "Bavariya"nın futbolçusu Lukas Hernandesə 6 aylıq həbs cəzası verib.***

Qol.az "Marca"ya istinadən xəbər verir ki, Fransa millisinin üzvü 2010-cu ildə Madrid küçələrinin birində sevgilisi Ameliya Lorente ilə dalaşıb. Məhkəmə 2017-ci ildə onlara 31 günlük ictimai iş cəzası verib və 6 ay bir-birinə yaxınlaşmağı qadağan edib.

Buna baxmayaraq, cütlük bu yaxınlarda Mayamidə istirahətə yollanıb. Məhkəmənin qərarına əməl etmədiyi üçün Hernandesə 6 aylıq həbs cəzası verilib. Futbolçunun vəkili apellyasiya məhkəməsinə müraciət edib. İşə 10 gün ərzində baxılmalıdır.